

## Rəsmi Bakıdan Paşinyanın təklifinə münasibət

*"Biz Ermənistan hökumətinin Azərbaycanla sərhəddə 3 nəzarət-buraxılış məntəqəsi yaratmaq qərarını 2020-ci il 9/10 noyabr tarixli Üçtərəfli Bəyanatın 9-cu bəndi üzrə öhdəliklərinin yerinə yetirilməsinin imitasiyası kimi qiymətləndiririk".*

Səh.2


# UNİKAL

№40 (2125) 28 Oktyabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev   www.unikal.org   unikal-1@mail.ru




## "Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi lazımdır"

### Putin: "Sərhədlərin delimitasiyasını, sərhəd məsələsinin tam nizamlanmasını dəstəkləyirik"

*Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi lazımdır. "Unikal" xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin Valday Diskussiya klubunun plenar iclasında bildirib."Sülh müqaviləsi əlbəttə ki, lazımdır. Bizim mövqeyimiz sülh nizamlanmasını dəstəkləməkdən ibarətdir. Eləcə də sərhədlərin delimitasiyasını, sərhəd məsələsinin tam nizamlanmasını dəstəkləyirik. Biz bunun tərəfdarıyıq. O ki, qaldı hansı varinatı seçməyə, bu Ermənistanın, erməni xalqının və Ermənistan rəhbərliyinin işidir. Bütün hallarda, hansı variant seçilsə, əgər bu sülhə gətirib çıxaracaqsa...*

Səh.8



Səh.3

## Sülh danışıqlarının Soçi raundu - Kremlin yeni təklifi var, yoxsa...

## "Qiymətləri cilovlamaq qeyri-mümkündür"



*Milli Məclisin deputatı Vahid Əhmədov "Unikal"a müsahibə verib. O, 2023-cü ilin dövlət büdcəsinin əsasən hansı sahələri əhatə edəcəyindən, gələn il maaş və pensiyaların nə qədər artırılacağından, qiymətlərin bahalaşmasından və digər məsələlərdən danışıb.*

Səh.4

## Ölkəmiz dünyada tolerantlığın ünvanına çevrilib



*Tolerantlıq dedikdə Azərbaycanın adının yada düşməsi heç də təsadüfi deyil. Ölkəmiz artıq dünya miqyasında tolerantlığın ünvanı kimi tanınıb. Azərbaycanın multikulturalizm modeli dünyaya nümunədir. Yüzilliklər boyu ölkəmizdə məskunlaşan müxtəlif mədəniyyətlərə və dini etiqadlara mənsub xalqlara dözümlülük nümayiş etdirən Azərbaycan...*

Səh.2

## Zakir Qaralovun adı növbəti qalmaqalda



*Sabiq Baş prokuror Zakir Qaralovun adı növbəti qalmaqala qarışıb. Belə ki, bir neçə gün öncə Bakı şəhər Prokurorluğunun sabiq müstəntiqi Samir Kərimov və onunla birlikdə mühakimə olunan sabiq polis əməkdaşı Ramin Talıbovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb.*

Səh.11

# Afətdən məhkəmə qərarına rəy: “Heç kimdən qaçmıram“



***“Məsələdən xəbərim var. Yerim yurdum da bəllidir. Axtarış edən orqan mənə zəng edib. Harada yaşadığımı, qeydiyyatdan olduğum ünvanı polisin nəzərinə çatdırmışam. Heç kimdən qaçmıram. Hər gün də çıxış etdiyim toylardan canlı videolar paylaşıram”.***

“Unikal” bizim.media-ya istinadla xəbər verir ki, bu sözləri müğənni Afət Fərmanqızı deyib. Sənətçi Ali Məhkəmənin onun barəsində axtarış elan edilməsi ilə bağlı qərara bu cür münasibət bildirib. “İşin mənsiz baxılması ilə bağlı məhkəməyə şikayət ərizəsi ilə müraciət etmişəm. Amma vəkilim orada axtarışımı da yazıb. Çünki Ali Məhkəmə axtarışı ləğv edə bilməz. Nə Ali Məhkəmənin, nə də ki apelyasiyanın bunu ləvğ eləməyə ixtiyarı çatmır.

Bilirdim ki, axtarış yerində də qalacaq. Bu məsələ mənsiz baxılmalı idi. Cinayət Prosesual Məcəlləsinin 311-ci maddəsində deyilir ki, təqsinləndirilən şəxs əgər Azərbaycanda yoxdursa, ölkə hüdudlarından kənardadırsa, proses mənsiz baxıla bilər, vəkilimin iştirakı ilə. Biz ondan şikayət vermişik. Amma hələ onun cavabını bilmirəm.

Düşünürəm ki, məhkəmə mənə qarşı qərəzlidir. İştirakım olmadan işimə baxmır. Ali Məhkəmə məni həbssiz axtarışa verib. İynə olub yoxa çıxmamışam ki.. Müğənni adamam, hamı bilir, mən haradayam. Məni tapmaq iki vur, ikidir”.

Xatırladaq ki,bu gün Ali Məhkəmədə hakim İlkin Rəcəbovun sədrliyi ilə baxılan iş üzrə qərar elan edilib. Qərara əsasən, şikayət əsassız hesab olunaraq rədd edilib. Afət Fərmanqızı barəsində axtarış qərarı qüvvədə qalıb.

Qeyd edək ki, Xalq artisti Flora Kərimova müğənni Afət Fərmanqızı barəsində xüsusi ittiham qaydasında məhkəməyə müraciət edib. İş Binəqədi Rayon Məhkəməsində hakim Mahirə Kərimovanın icraatına verilib.

Müğənni Afət Fərmanqızı məhkəməyə gəlmədiyi üçün cinayət işi üzrə icraat müvəqqəti dayandırılıb və onun barəsində həbssiz axtarış elan olunub.

Xüsusi ittihamçısı Afət Fərmanqızının Cinayət Məcəlləsinin 147-ci (böhtan) və 148-ci (təhqir) maddələri ilə ittiham edir.

# "Ailələrin dağılmasında qadınlar günahkardır" - Xatun

***”İndiki dövrdə qadınlarda sevgi qalmayıb. Kişilərdə sevgi var”.***

”Unikal” xəbər verir ki, bunu müğənni Xatun Əliyeva ”Elgizlə izlə” proqramında deyib.

O, ailələrin dağılmasında qadınları günahkar gördüyünü bildirib: ”Hər şeyi kişilərin boynuna atırıq. İndi sosial şəbəkə inkişaf edib. Qadın baxır filankəs getdi Bodruma, Antalyaya. Gəlib kasıb ərdən onu tələb edir. Ailədə problem yaranır, kişi bədbəxt olur. Fikirləşir ki, ailəmi saxlaya bilmirəm. Beləcə, ailələr dağılır”.





# “Miri Yusifin nəyi məndən artıqdır“ - Faytonçu Nazim

***”Akif İslamzadənin, Anatoli Qəniyevin də fəxri adı yoxdur. Mən onlardan böyük müğənniyəm? Fazil Salayev böyük aktyordur, amma adı olmayıb. 48 yaşında dünyasını dəyişib”.***

“Unikal” axşam-a istinadla xəbər verir ki, bu sözləri ”Faytonçu” ləqəbi ilə tanınan müğənni Nazim Pişiyari deyib.

Jurnalist Həmid Həmidlinin yutubda yayımlanan proqramının qonağı olan ifaçı fəxri ad alamamasından gileylənib.

Nazim ”Necə olur Miri Yusif Xalq artistidir, sizin fəxri adınız yoxdur? Siz sənətə gələndə, Miri Yusif hələ doğulmamışdı” sözlərinə belə cavab verib: ”Bu haqda çox düşündüm. Hansı meyara görə, insan fəxri ad almalıdır? Cavab tapmıram. Vətənə xidmət edirəm, millətin sevimli müğənnilərindən biriyəm, dövlət tədbirlərində iştirak edirəm, Prezident, deputat seçkilərində oluram. Normal ailəm var. Digərləri kimi on dəfə evlənib boşanmamışam. 32 ildir ailəmlə xoşbəxtəm. Heç kimin bağına daş atmamışam. Evim var, dövlətdən yardım istəmirəm, demirəm buram ağrıyır kömək edin, təqaüd, ev istəmirəm.

Şükürlər olsun ki, kifayət qədər imkanım var. Miri Yusifin hansı kriteriyası, nəyi məndən artıqdır ki, o Xalq artistidir, mən isə heç bir fəxri ada sahib deyiləm. Heç kimin nəyindəsə gözüm yoxdur. Amma analiz edirəmsə, anlaya bilmirəm. Bütün bunları kim və necə edir?”

# Namiq Qaraçuxurlunun həyat yoldaşı ilə bağlı arzusu



***”Ürəyimdə qalan arzularım var. Bəzisi bilirəm ki, həyata keçəcək. Bəzisi isə arzu olaraq qalacaq”.***

Bu sözləri meyxanaçı Namiq Qaraçuxurlu ”7 canlı” proqramında deyib. Sənətçi həyat yoldaşı ilə bağlı arzusunu dilə gətirib: ”Qalan arzularımın qarşısını sənətim alır. Məşhurluğum, sənətə olan sevgim arzularımın üstünü örtdü. Onlardan biri o idi ki, istəyirdim toyum bəy-gəlin bir arada olan kimi olsun, xanımımla rəqs edim, ailə çərçivəsində görüntülənsin. Amma kişi toyu etdim ki, ailə görüntülərim yayılmasın”.

Qeyd edək ki, N.Qaraçuxurlunun toyu 2015-ci ildə olub. Onun bu nikahdan Sara adlı qız övladı var.

# Könül Xasıyevaya 100 min manat göndərdi



***Xalq artisti Könül Xasıyeva bir müddət əvvəl boğazında şiş aşkarlandığını və müalicə üçün 254 min manata ehtiyacı olduğunu açıqlayıb.***

Axşam.az xəbər verir ki, xanəndə bunun üçün sosial şəbəkədə müraciət ünvanlayıb, sənət adamlarını işarələyərək, ona yardım etmələrini istəyib.

Xasıyeva onun çağırışına Əməkdar artist Yusif Mustafayevin reaksiya verdiyini açıqlayıb. O bildirib ki, müğənni ona müalicəsi üçün min dollar (1700 manat) göndərib.

Muğam ifaçısı həmçinin adını açıqlamadığı bir xanımın onun müalicəsi üçün böyük məbləğdə pul bağışladığını söyləyib: ”Sənətimi sevən hacı xanım 100 min manat pul göndərib. Sonsuz təşəkkür edirəm. Ümid edirəm ki, gec olmadan sənətimi sevən dəyərli dostlarım 155.000 azn üçün də dəstək olacaqlar”.

Könül Xasıyeva yardım üçün hesab nömrəsini də paylaşıb: Qeyd edək ki, xanəndənin müalicəsi Almaniyada olacaq.




# Prokurorluqdan Bərdəyə raket hücumu ilə bağlı bəyanat

***Baş Prokurorluq Bərdə şəhərinə edilmiş raket hücumları ilə əlaqədar bəyanat verib.***

Qurumdan “Unikal”a daxil olan bəyanatda deyilir: ”Bəyan edirik ki, Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların Əlavə Protokollarını, 2020-ci ilin sentyabr ayının 27-də başlayan 44 günlük Vətən müharibəsinin gedişatında əldə olunmuş humanitar atəşkəs rejiminin tələblərini pozaraq, döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini - yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçmiş, müxtəlif növ silahlarla, ballistik raketlərlə, eyni zamanda qadağan olunmuş artilleriya silahları ilə atəşə tutaraq insanlıq və sülh əleyhinə, habelə müharibə cinayətləri törətmiş, müharibəyə hər hansı aidiyyəti olmayan, gündəlik qayğıları ilə yaşayan mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurublar.

Belə ki, 2020-ci il oktyabrın 5-də Ermənistan silahlı qüvvələri tərəfindən müharibə ərazisindən kənarda yerləşən Bərdə şəhərinə ilk raket hücumu edilmiş, nəticədə 1-i qadın, 1-i kişi olmaqla 2 nəfər qəsdən öldürülmüş, 2-si qadın, 5-i kişi olmaqla 7 nəfər dinc sakin xəsarət alıb.

Təcavüzkar dövlət tərəfindən 2020-ci il oktyabrın 8-də Bərdəyə ikinci raket hücumu edilmiş, nəticədə 8 (kişi) nəfər dinc sakin müxtəlif dərəcəli xəsarət alıb.

2020-ci il oktyabrın 27-də Bərdə rayonunun Qarayusifli kəndinin raket hücumuna məruz qalması nəticəsində 3-ü qadın, 1-i kişi, 1-i uşaq olmaqla 5 nəfər ölüb, 7-si qadın, 7-si uşaq olmaqla 14 nəfər xəsarət alıb.

Qeyd edilən tarixlərdə Bərdə rayonunun raket və ağır artilleriyadan bombalanması nəticəsində 4-ü qadın, 2-si kişi, 1-i uşaq olmaqla 7 nəfər şəxs qəsdən öldürülmüş, 9-u qadın, 13-ü kişi, 7-si uşaq olmaqla 29 nəfər yaralanmış, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə, yaşayış evlərinə və digər tikililərə külli miqdarda ziyan dəyib.

Ermənistanın hərbi-siyası rəhbərliyinin göstərişi ilə şəhər əhalisinin gur olduğu yerlər, o cümlədən mülki şəxslərin kompakt yaşadığı hissələrinin hədəfə alınmasında məqsəd daha çox insanın həyatına son qoymaq olub.

Azərbaycan Respublikasının Baş Prokurorluğu beynəlxalq təşkilatları və bütövlükdə dünya ictimaiyyətini Azərbaycanın mülki əhalisini məqsədli şəkildə hədəf seçərək onların qətli ilə nəticələnən sülh və insanlıq, eləcə də müharibə cinayətləri törətmiş Ermənistana və onun hərbi-siyasi rəhbərliyinə qarşı hüquqi məsuliyyət tədbirlərini görməklə beynəlxalq hüququn aliliyini təmin etməyə çağırır.

İnsanlıq və sülh əleyhinə olan cinayətləri qınayır, həlak olanların xatirəsini dərin hüznlə yad edirik!”.

# Zakir Qaralovun adı növbəti qalmaqalda

## Keçmiş Baş prokuror barədə sensasion iddiaların ardı-arası kəsilmir

Sabiq Baş prokuror Zakir Qaralovun adı növbəti qalmaqala qarışıb. Belə ki, bir neçə gün öncə Bakı şəhər Prokurorluğunun sabiq müstəntiqi Samir Kərimov və onunla birlikdə mühakimə olunan sabiq polis əməkdaşı Ramin Talıbovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb. İttihama əsasən, onlar qabaqcadan əlbir olaraq Hindistan vətəndaşlarından rüşvət alıblar.

İstintaq sənədlərinə görə, 2001-ci ildə Bakı Şəhər Prokurorluğunun mühüm işlər üzrə müstəntiqi işləyən Samir Kərimov Yasamal rayon Polis İdarəsinin 28-ci polis bölməsinin əməkdaşı polis zabiti Ramin Talıbov və digər polis əməkdaşlarının müşayiəti ilə Hindistan vətəndaşlarının işlədiyi yuyucu toz satışı ilə məşğul olan şirkətə gedib. Sabiq müstəntiq şirkətə baxış keçirib, hindistanlıları yararsız yuyucu tozlar satmaqda ittiham edib. Bundan sonra müstəntiq məsələnin bağlaması üçün Hindistan vətəndaşlarından 20 min dollar rüşvət alıb.



Bu səbəbdən mühakimə edilən şəxslərlə bağlı elə ilk məhkəmə iclasındaca Qaralov barədə ilginc iddia ortaya atılıb. Belə ki, vəkil müdafiə etdiyi Ramin Talıbovun əleyhinə ifadə vermiş bəzi şahidlərin dindirilməsi barədə vəsatət verib.

Vəkil qeyd edib ki, həmin şahidlər 13 il əvvəl prokurorluqda dindirilsələr də, cinayət işi sonradan yenilənən zaman həmin şahidlərin dindirilməsi, təqsirləndirilən şəxslərlə üzləşdirilməsi təmin olunmayıb. Bu vəsatəti digər təqsirləndirilən Samir Kərimovun vəkili də dəstəkləyib. Onun sözlərinə görə, sabiq baş prokuror Zakir Qaralovun Samir Kərimovla yaxşı münasibətləri olub. Vəkil qeyd edib ki, Qaralova kostyumu da Samir Kərimovun atası alıb. Vəkilin sözlərinə görə, Abbas Abbasovun oğlu Aydın Abbasovun şikayətindən sonra Samir Kərimovla bağlı araşdırmaya başlanılıb. Vəkil deyib ki, şikayətçi Hindistan vətəndaşları Aydın Abbasovun himayədarlığı altında olublar: “Aydın Abbasovun müraciətindən sonra Zakir Qaralov məsələyə qarışıb. Amma Samir Kərimovla bağlı heç bir araşdırma aparılmayıb. Biz müdafiə tərəfi olaraq dəfələrlə bununla bağlı istintaqa müraciət etsək də, bu iş dondurulub. Cinayət işinin icraatı dayandırılıb. Biz də hesab edirik ki, həmin şahidlər cinayət işi təzələnəndən sonra dindirilməli idilər. Amma istintaq nədənsə bunu etməyib. Biz də həmin şahidlərin dindirilməsinin təmin olunmasını istəyirik”.

Samir Kərimov isə deyib ki, hazırda 62 yaşı var, sonuncu iş yeri Bakı şəhər prokurorluğunda müstəntiq vəzifəsi olub. O bildirib ki, Baş prokurorluqda onun vəzifəsi daha yüksək imiş və Zakir Qaralovun baş prokuror təyin olunması üçün təqdimatın verilməsində iştirak edib. Kərimov əlavə edib ki, Zakir Qaralov baş prokuror təyin olunandan sonra onu Baş Prokurorluqdan kənarlaşdırılıb və Bakı şəhər Prokurorluğuna müstəntiq təyin edilib. Həmçinin bildirib ki, bu cinayət işi üzrə 1 il istintaq aparılıb və işlə bağlı onu kiminləsə üzləşdirməyiblər.

Maraqlıdır ki, Zakir Qaralov Baş prokuror postunu tərk elədikdən sonra onun adı mütəmadi olaraq müxtəlif məhkəmə proseslərində, eləcə də mediada yer alan müxtəlif qalmaqallı materiallarda hallanmaqdadır. Məsələn, bu ilin mayında ləğv edilmiş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) yüksək vəzifəli şəxslərinin cinayət işi üzrə məhkəmə prosesi zamanı Baş İstintaq İdarəsinin şöbə rəisi olmuş Sahib Ələkbərovun “Mən müstəntiq idim, Mövlam Şıxəliyevə (həmin idarənin rəisi - red.) məruzə edirdim. O da birbaşa Zakir Qaralova, Rüstəm Usubova məruzə edirdi. Onların birbaşa yazılı və şifahi göstərişlərini icra edirdim. Deyirdilər ki, həbs et, edirdim, azad et, edirdim. Həbs edəndə hansı maddə ilə vəsatətin yazılmasını tapşırırdılar. Azad edilәndə də yenə də onlar deyirdi, mən də azad edirdim” sözləri böyük rezonans doğurmuşdu.

Bir müddət öncə isə Qaralova məxsus olduğu bildirilən ”Akkord” şirkəti ilə bağlı bir qalmaqal yaşanmışdı - belə ki, “İtalian Design Holding”in direktoru Franko Rizzatonun Bakının ”Gənclik” metrostansiyası yaxınlığında 2013-cü ildə tikilən tunelə yarım milyard dollardan çox pul, yəni 512 milyon dollar xərclədiyini açıqlamış və bu böyük müzakirələrə səbəb olmuşdu.

Həmçinin Qaralovun şirkətinin çəkib istifadəyə verdikdən qısa müddət sonra bir neçə dəfə çökən və hazırda genişmiqyaslı təmir işlərinin aparıldığı Bakı-Quba-Rusiya yoluna görə gündəmdədir. Bu yolun tikintisi üçün 147 milyon manat (hər kilometri 1,1 milyon manata!) xərcləndiyi bildirilir, istifadyə verildikdən az sonra yolun müxtəlif hissələrində aparılan təmir işləri ilə əlaqədar həmin vəsaitin 200 milyon manata yaxınlaşdığına dair də iddialar var . Üstəlik, yolun beton örtüyünə xüsusi istilik sistemi quraşdırılmalı olsa da, sonradan bunun reallaşmadığı, yəni yolun elə adi beton örtüklü çəkildiyi və istifadəyə verildiyi ortaya çıxıb. Ekspertlər Bakı-Quba-Rusiya yolunun inşasında korrupsiya iddiaları ilə bağlı araşdırmalara başlanmasını və məsələyə hüquqi qiymət verilməsini vacib sayırlar.

Bundan başqa, Qaralov vəzifəsindən kənarlaşdırıldıqdan sonra onun dövründə haqsızlığa məruz qalan çox sayda şəxsin mediada ciddi iddiaları, ittihamları yer alıb. Bu iddia və ittihamları səsləndirənlər arasında keçmiş vəzifəlilər, sahibkarlar və s. var. Deyilənlərin ana xəttində isə rüşvət faktları dayanır.

Son vaxtlar belə fikirlər səslәndirilir ki, əgər bəzi sabiq məmurların fəaliyyəti araşdırılırsa, Zakir Qaralovun da adı kənarda qalmamalıdır. Hətta onun məsuliyyətə cəlb oluna biləcəyi yönündə xəbərlər də dövriyyəyə buraxılır.

Xatırladaq ki, Zakir Qaralovun Respublika Prokurorluğunda nə az, nə çox - düz 20 il sürən rəhbərliyinə 2020-ci il mayın 1-də son qoyulub. Əksər hüquqşünaslar, vəkillər onun müsbət xatırlanacağını düşünmürlər. Hesab edilir ki, Qaralovun vaxtında xüsusilə yerli prokurorluqların ictimaiyyət arasında nüfuzu aşağı düşmüşdü...

***Toğrul Əliyev***

# Sülh danışıqlarının Soçi raundu - Kremlin yeni təklifi var, yoxsa...

***Oktyabr ayının 31-də Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Soçi şəhərində görüş keçiriləcək. Görüşün təşəbbüskarı Rusiya lideri Vladimir Putindir. Belə ki, Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova Putinin Azərbaycan və Ermənistan liderlərini üçtərəfli və ikitərəfli məsələlərin bütün spektrini müzakirə etmək üçün Rusiyaya növbəti üçtərəfli sammitə dəvət etdiyini bildirib.***

Sabiq xarici işlər naziri Elmar Məmmədyarov "Unikal"a açıqlamasında görüşün mümkün nəticələri ilə bağlı fikirlərini söyləyib: "Yəqin ki, artıq görüşdə müzakirə olunacaq məsələlər bəllidir. Düşünürəm ki, Ermənistan və Azərbaycan arasında imzalanmalı olan sülh sazişi görüşün əsas müzakirə mövzusu olacaq. Bununla yanaşı sərhədlərin delimitasiya və demarkasiyası məsələləri də çox önəmlidir. Zəngəzur dəhlizi ilə bağlı müzakirələrin olacağını da təxmin edirəm. İnanıram ki, bütün bu müzakirələrdən sonra hər hansı nəticə əldə olunacaq. Görüşlə bağlı həm Ermənistan, həm də Azərbaycan tərəfi bəyanat verib. Lakin, delimitasiya və demarkasiya işləri aparılmasa, sülh sazişi imzalanmasa, sərhəddə təxribatlar davam edə bilər. Erməni təxribatlarının qarşısını almağın ən yaxşı yolu sülh sazişinin imzalanmasıdır. Sülh sazişində Zəngəzur dəhlizinin də açılması olduqca vacibdir. Gərək biz Ermənistan tərəfini sülh sazişini imzalamağa təhrik edək. Ermənilər unutmamalıdırlar ki, bu onların milli maraqlarına uyğundur", - deyə bildirib.

Politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, bu görüşdə sərhədlərin delimitasiya və demarkasiyası, Zəngəzur dəhlizinin açılması, sülh müqaviləsinin detalları müzakirə ediləcək. Həmçinin Qarabağdan silahlı erməni birləşmələrinin çıxarılması Azərbaycan tərəfindən masaya yatırılacaq. Onun sözlərinə görə, Rusiya tərəfini maraqlandıran isə, Brüsselin vasitəçiliyinin qarşısını almaqla sülh sazişinə öz iştirakı ilə nail olmaqdır. Amma, bunun üçün praqmatik və beynəlxalq hüquqa söykənən addım atmır: "Ermənistan Baş naziri Nikol Paşinyan bu görüşdə "Qarabağda sabitliyin və təhlükəsizliyi müzakirə edəcəyini qeyd etdi. Göründüyü kimi N. Pşainyan Qarabağla bağlı yekun status məsələsini qaldırmır. Bu,o deməkdir ki, N. Paşinyan Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyır və Qarabağda yaşayan ermənilərin təhlükəsizliyini müzakirə edəcək. Qeyd edim ki, Ermənistan baş naziri Azərbaycanın daxili işinə qarışa bilməz və imzalanmış Bəyanatın şərtlərinə əməl etməlidir. Ona görə də rəsmi Bakı Qarabağdakı ermənilərin təhlükəsizliyini N. Paşinyanla müzakirə etməməlidir. Bununla yanaşı, N.Paşinyan Qarabağda separatçı rejimə 20 milyard dram kredit ayırıb. Bu vəsait mənzil tikintisi və bank sektoruna, həmçinin silahlı erməni birləşmələrinin saxlanmasına xərclənəcək. Soçi görüşündə Ermənistanın bu məsələlərə son qoyulması tələb edilməlidir".

Həmsöhbətimiz deyib ki, Rusiyanın vasitəçiliyi ilə keçirilən bu görüşdə sülh müqaviləsinin detalları müzakirə ediləcək: "Moskvanın planında Qarabağın yekun statusu bəndi salındığı üçün Azərbaycan tərəfindən belə bir sülh planı qəbul edilmir. Amma bu görüşdə sərhədlərin delimitasiya və demarkasiyası və Zəngəzur dəhlizinin açılması məsələsində irəliləyişin olması mümkün ola bilər. Amma Moskvanın son davranışları göstərir ki, Rusiya irəliyə doğru addım atmaq istəmir. Qeyd edim ki, Soçi görüşü Ermənistan rəhbərliyi tərəfindən ciddi qəbul edilmir. Moskva Ermənistan Azərbaycan məsələsində yalnız öz geosiyasi maraqları prizmasından yanaşdığı üçün təşəbbüs Brüsselin əlinə keçib. Təbii ki, Soçi görüşündə Rusiya obyektiv mövqe tutarsa, regional mövqeyini gücləndirə bilər. Amma anti-Azərbaycan və türkfobiya siyasəti buna imkan vermir. Bundan əlavə, Kreml rəhbərliyi reallıq hissini itirib və geosiyasi reallıqları obyektiv qiymətləndirməkdən uzaqdır. V.Putinin Ukraynada apardığı işğalçı müharibə fonunda Cənubi Qafqazda sülh sazişini həyata keçirməsi mümkün görünmür. Soçi görüşündən sonra silahlı erməni birləşmələri Azərbaycan ərazisindən çıxarılmasa və Zəngəzur dəhlizi ilə bağlı irəlləyiş olmasa, belə bir görüş əvvəlki görüşlərin Moskva tərəfindən imitasiyalı davamı olacaq".

Siyasi şərhçi Aqşin Kərimov isə bildirib ki, indiki mərhələ Azərbaycanla Ermənistan arasındakı sülh gündəliyinin ilkin detallı demo variantının Rusiya və ABŞ üçün nələri vəd etdiyi üzərində fikirlərə fokuslanmaq zərurətini meydana çıxarır. Onun fikrincə, ən vacib ABŞ-la Rusiyanın Cənubi Qafqazda didişdiyi platformada Azərbaycanın hansı nöqtədə dayanmasıdır: "İstər Vaşinqtonun, istərsə də, Rusiyanın təqdim etdiyi sülh modelində Azərbaycanın xeyrinə məqamlar çoxdur, lakin elə hər iki supergücün Bakının maraqlarına uyğun olmayan təhlükəli tezisi də var. Gedən proseslərin alt qatında gizlənənlər və dərinlikdəki mətləblərin bəzi aşkar təzahürlərini təhlil etsək, Bakının qarşı olduğu iki əsas xəttin önə çıxmasına köklənə bilərik. Bunlardan biri episentri ABŞ olan təhlükədir, belə ki, ən çox Vaşinqton və onun Cənubi Qafqazla bağlı çağırışlarının yedəyinə qoşulan Fransa Qarabağdakı ermənilərə status istəyir ki, həmin meyl Azərbaycanın suverenlik və təhlükəsizliyi üçün təhdid elementidir.Digər tərəfdən ABŞ Azərbaycanın Ermənistanla sərhəddən qoşunlarını geri çəkməkdə maraqlıdır, lakin bu, Bakı üçün prinsipial bir mövqe deyil".



Müsahibizmi hesab edir ki, Rusiya mərkəzli təhlükə isə Kremlin Qarabağda rus icması yaradıb onu şişirtməsi cəhdləridir, bu, Moskvanın regionda ordu saxlamasından da daha həyəcanlıdır: "Rusiyanın Ukraynadakı müharibədə düçar olduğu bir sıra uğursuzluqlar həmin meyli körükləyə bilər, hərçənd ki, Azərbaycanın masadakı və təhlükəsizlik mühitindəki qırmızı cizgiləri heç zaman aktuallığını itirməyəcək. Azərbaycanla Rusiya arasında son günlər yüksək səviyyəli media platformalarındakı qarşılıqlı ittihamlar da həmin motivlərlə bağlı ola bilər. Moskva elə düşünür ki, Bakı ABŞ-ın təqdim etdiyi sülh modelinə üstünlük verir - status məsələsini çıxmaq şərtilə. ABŞ-la Rusiyanı regionda kəllə-kəlləyə gətirən digər proses Azərbaycan ordusunun sərhəddə irəliləməsidir. Moskva bunu dəstəkləsə də, ABŞ bu dəstəyin Kremldən gəldiyini həzm edə bilmir və delimitasiya prosesindən irəli gələn rıçaqları əlində cəmləşdirmək istəyir".

Əliyevlə Paşinyanın Rusiyada gözlənilən görüşünün (Soçidə bir araya gələcəyi fikirləri var) təsvirinə gəlincə, Azərbaycan tərəfi qlobal oyunçuların hərisliklərinin artmasına baxmayaraq yenidən öz şərtlərini masanın üstünə qoyacaq.

Ermənistan isə itirməkdə davam edəcək, ən azından iki səbəbə görə:

1. ABŞ Azərbaycan ordusunun irəliləməsinə qarşı çıxacaq əsaslı addımlardan çəkinəcək. Çünki Vaşinqton Bakı ilə strateji tərəfdaşlıq səviyyəsindəki əlaqələrini İrəvanın ayaqlarına vermək meylinə getməz.
2. Onsuz da Rusiya Ermənistanı "eşafota" çıxarıb onu sərt cəzalandırmaq istədiyindən o da Bakının maraqlarına üstünlük verəcək.

***M.İbrahimli***



## "Əlverişli Biznes Mühiti" layihəsinin növbəti Yol Xəritəsi təqdim edilib

***Dünya Bankı Qrupunun "Əlverişli Biznes Mühiti" layihəsinin "Kommunal xidmətlərə (elektrik təchizatı şəbəkəsinə - ETŞ) qoşulma" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin həyata keçirilməsinə dair 2022-2023-cü illər üzrə Yol Xəritəsinin təqdimatı keçirilib.***

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzində təşkil edilmiş tədbirdə çıxış edən energetika nazirinin müavini, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın "Elektrik təchizatı şəbəkələrinə qoşulma" İşçi qrupun rəhbəri, energetika nazirinin müavini Samir Vəliyev ETŞ-yə qoşulma sahəsində görülən tədbirlər barədə məlumat verib.

İşçi Qrupunun üzvlərinin iştirakı ilə hazırlanmış və layihəyə cəlb edilmiş məsləhətçi şirkətin təkmilləşdirdiyi Diaqnostika Matrisası əsasında tərtib edilən "Kommunal xidmətlərə (ETŞ-yə) qoşulma" indikatoru ilə bağlı müvafiq Yol Xəritəsi Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya təsdiq edib.

Bildirilib ki, Yol Xəritəsində kommunal xidmət qaydalarının keyfiyyəti, kommunal xidmət göstəriciləri və xidmətlərin şəffaflığı, kommunal sahədə xidmətlərin həyata keçirilməsinin səmərəliliyi, maarifləndirmə və təbliğat işlərinin aparılması istiqamətlərində 4 alt indikator, 5 komponent və 10 alt komponent üzrə 21 tədbir öz əksini tapıb. Bu tədbirlər əsasən elektrik təchizatı şəbəkələrinə qoşulma üzrə normativ hüquqi baza, kommunal xidmətlərin təhlükəsizliyi və təchizatın keyfiyyəti, tariflər və digər istiqamətləri əhatə edir.

Komissiyanın Katibliyinin rəhbəri, Prezident Administrasiyasının sektor müdiri Vüsal Şıxəliyev Dünya Bankının "Əlverişli Biznes Mühiti" layihəsi barədə çıxış edib, təsdiq edilmiş Yol Xəritəsinin əhəmiyyəti və müvafiq sahəyə verəcəyi töhfələr barədə fikirlərini bölüşüb. "Azərişıq" ASC-nin sədr müavini Ramil Yusifov sənəddə nəzərdə tutulan tədbirlərin elektrik təchizatı şəbəkəsinə qoşulma sahəsində xidmətin keyfiyyətinə müsbət təsirini vurğulayıb.

Sonra iclas iştirakçıları yeni Yol Xəritəsi üzrə qarşıda duran vəzifələrə dair müzakirələr aparıb, səsləndirilmiş rəy və təklifləri tədbirlərin icrası zamanı nəzərə alınmasını məqsədəuyğun hesab edib.

# Prezidentdən DTX ilə bağlı fərman



***“Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti haqqında Əsasnamə”də, “Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin strukturu”nda və “Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətində ali hərbi rütbəli vəzifələrin siyahısı”nda dəyişikliklər təsdiq edilib.***

”Unikal” xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev fərman imzalayıb.

Nazirlər Kabinetinə bu fərmandan irəli gələn məsələləri həll etmək tapşırılıb.

# "Ermənistanın cəzasızlığına son qoyulmalıdır" - XİN

***Ermənistanın törətdiyi müharibə cinayətləri ilə bağlı cəzasızlığına son verilməlidir.***

”Unikal” xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin ”Twitter” hesabındakı paylaşımında qeyd edilib.

“İki il öncə, 27-28 oktyabr tarixlərində Ermənistan atəşkəsi pozaraq Bərdəni kasetli raketlərlə bombaladı. 2 yaşlı qız da daxil olmaqla 27 nəfəri qətlə yetirən və 70-dən çox adamı yaralayan bu hücum 2020-ci il müharibəsində mülki əhaliyə qarşı ən ölümcül hücum idi. Ermənistanın törətdiyi müharibə cinayətləri ilə bağlı cəzasızlığına son verilməlidir”, - paylaşımda qeyd olunub.

# "Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi lazımdır"

## *Putin: “Sərhədlərin delimitasiyasını, sərhəd məsələsinin tam nizamlanmasını dəstəkləyirik”*



***Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi lazımdır.***

”Unikal” xəbər verir ki, bunu Rusiya Prezidenti Vladimir Putin Valday Diskussiya klubunun plenar iclasında bildirib.“Sülh müqaviləsi əlbəttə ki, lazımdır. Bizim mövqeyimiz sülh nizamlanmasını dəstəkləməkdən ibarətdir. Eləcə də sərhədlərin delimitasiyasını, sərhəd məsələsinin tam nizamlanmasını dəstəkləyirik. Biz bunun tərəfdarıyıq. O ki, qaldı hansı variantı seçməyə, bu Ermənistanın, erməni xalqının və Ermənistan rəhbərliyinin işidir. Bütün hallarda, hansı variant seçilsə, əgər bu sülhə gətirib çıxaracaqsa, biz ancaq bunu dəstəkləyirik”,- deyə Putin bildirib.

Rusiya lideri bildirib ki, biz heç nəyə məcbur etmirik.

“Biz Ermənistana nəyisə diktə edə bilmərik və etməyə hazılaşmırıq. Əgər Ermənistan xalqı və rəhbərliyi hesab edirsə ki, sülh müqaviləsinin hansısa variantını seçmək lazımdır, başa düşdüyüm qədər bu Vaşinqton planıdır. Hansı ki, Azərbaycanın Qarabağ üzərində suverenliyinin tanınmasını özündə əks etdirir. O zaman buyursunlar”,- deyə Rusiya lideri əlavə edib.

Vladimir Putinin sözlərinə görə, erməni xalqının bütün seçimləri dəstəklənəcək.

Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# President BMT Baş katibinin müavinini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul edib.***

”Unikal” xəbər verir ki, görüşdə Azərbaycanın BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə əlaqədar 2030-cu ilə qədər qarşıya qoyulmuş hədəflərə nail olacağına əminlik ifadə edilib və bu istiqamətdə əldə olunan nailiyyətlər xüsusi vurğulanıb. Ölkəmizin BMT-nin Cenevrə bölməsi yanındakı strukturları və ixtisaslaşmış təşkilatları ilə əməkdaşlığı qeyd olunub. Bundan əlavə, Azərbaycanın BMT-nin ixtisaslaşmış təşkilatlarına verdiyi könüllü maliyyə töhfələri, həmçinin donor təşəbbüslərini dəstəkləməsi məsələləri vurğulanıb. COVID-19-a qarşı mübarizə tədbirləri çərçivəsində Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə Hərəkatın 80-dən çox üzv ölkəsinə göstərdiyi humanitar və maliyyə yardımı nümunəvi hal kimi qiymətləndirilib.

Tatyana Valovaya BMT-nin Cenevrədəki bölməsinin rəhbərinin və Heydər Əliyev Fondunun birgə təşəbbüsü ilə Heydər Əliyev Mərkəzində keçirilən Azərbaycan qadınlarına həsr olunmuş fotosərginin əhəmiyyətinə toxunub. Bildirilib ki, sərgi Dayanıqlı İnkişaf Məqsədlərinə töhfə vermiş Azərbaycan qadınlarını təşviq edir və ilk olaraq Bakıda təşkil edilən bu tədbir mütəmadi şəkildə digər ölkələrdə də keçiriləcək.

# İcra başçılarının səlahiyyətləri artırıldı

***Yerli icra hakimiyyəti başçısının səlahiyyətləri artırılıb.***

”Unikal”ın xəbərinə görə, bu, Prezident İlham Əliyevin imzaladığı fərmanla “Yerli icra hakimiyyətləri haqqında Əsasnamə”nin 4.11.17-ci yarımbəndi yeni redaksiyada verilib.

Yeni redaksiyaya əsasən, yerli icra hakimiyyəti başçısının yaşayış məntəqələrində küçə və meydanlara ad vermək, onların adlarını dəyişdirmək, ünvan reyestrinə daxil edilmiş ünvan rekvizitləri hesab olunan nəqliyyat infrastrukturu obyektlərinin adlarını və daşınmaz əmlak obyektlərinin nömrələrini əks etdirən ünvan lövhələrini Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 27 noyabr tarixli 27 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında ünvan reyestrinin aparılması və daşınmaz əmlak obyektlərinə ünvan verilməsi Qaydaları”na uyğun olaraq hazırlamaq və yerləşdirmək, mövcud ünvan lövhələrinin qorunub saxlanılmasına nəzarət etmək və daşınmaz əmlak obyektlərində yerləşdirilmiş ünvan lövhələrinin mövcudluğunu müəyyənləşdirmək məqsədilə mütəmadi monitorinq keçirmək, ünvan lövhələrinin məhv edilməsi və ya zədələnməsi hallarını aşkar etdikdə, bu barədə aidiyyəti üzrə məlumat vermək səlahiyyəti olacaq.



Əsasnamənin əvvəlki variantında isə yerli icra hakimiyyəti başçısının yaşayış məntəqələrində küçə və meydanlara ad vermək, onların adlarını dəyişdirmək səlahiyyəti vardı.

# Rəsmi Bakıdan Paşinyanın təklifinə münasibət

***“Biz Ermənistan hökumətinin Azərbaycanla sərhəddə 3 nəzarət-buraxılış məntəqəsi yaratmaq qərarını 2020-ci il 9/10 noyabr tarixli Üçtərəfli Bəyanatın 9-cu bəndi üzrə öhdəliklərinin yerinə yetirilməsinin imitasiyası kimi qiymətləndiririk”.***

“Unikal” APA-ya istinadən xəbər verir ki, bu barədə Baş nazirin müavini Şahin Mustafayev bildirib. “Çünki birincisi, aparılmış monitorinqin nəticələrinə görə, bu nöqtələrdən çıxan yollar relyefə və iqlim şəraitinə görə ilin böyük hissəsində, kommunikasiyaların bərpa edilməsinin məqsədlərindən biri olan Naxçıvanla nəqliyyat əlaqəsi və beynəlxalq tranzit daşımaları üçün yararlı deyil.



Bundan əlavə, bir qayda olaraq, keçid məntəqələri tərəflərin razılığı ilə, qarşılıqlılıq əsasında açılır. Azərbaycanla isə bu məsələdə heç bir razılaşma olmayıb.

Odur ki, Azərbaycanın qərb rayonları ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinə dair məlum bəyanatın 9-cu bəndinin şərtlərinin yerinə yetirilməməsinin əsas səbəbi, Ermənistan tərəfindən aparılmış monitorinqin tövsiyə etdiyi avtomobil yolunun optimal marşrutunu təqdim etməməsidir”, - Baş nazirin müavini qeyd edib.

O vurğulayıb ki, həmçinin beynəlxalq tranzit daşımaları üçün keçid rejimlərinin və paritet əsasda daxili daşımalar üçün sadələşdirilmiş keçid rejimlərinin razılaşdırılması mühüm əhəmiyyət kəsb edir: “Beləliklə, Ermənistan tərəfinin mövzu üzrə spekulyasiyası və imitasiyası 20 aylıq danışıqlar prosesinin mahiyyətini təhrif edir, onun ləngiməsinə və son nəticədə Ermənistanın üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməməsinə gətirib çıxarır”.

# Prezident İlham Əliyev Overçuku qəbul etdi

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.***



"Unikal" xəbər verir ki, görüşdə Azərbaycan və Rusiya prezidentləri arasında əldə olunmuş razılaşmalar əsasında münasibətlərimizin dinamik inkişafından və ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, nəqliyyat-tranzit, energetika sahələrində əməkdaşlığın mövcud vəziyyətindən məmnunluq ifadə edildi, bütün istiqamətlər üzrə irəliləyişin olduğu və ticarət dövriyyəsinin artdığı vurğulandı. Şimal-Cənub nəqliyyat dəhlizi ilə bağlı fikir mübadiləsi aparıldı.

Söhbət zamanı 10 noyabr Bəyanatının icrası ilə bağlı bölgədə nəqliyyat və iqtisadi əlaqələrin bərpası məqsədilə yaradılmış Azərbaycan, Rusiya və Ermənistan üçtərəfli işçi qrupunun fəaliyyəti üzrə məsələlər müzakirə olundu. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

# Zəfər Forumu keçirilib

***Oktyabrın 7-dən etibarən start götürən Zəfər Forumunun növbəti ünvanı Ağstafa rayonu olub.***

Ağstafa, Qazax, Tovuz, Şəmkir və Gədəbəy rayonlarını təmsil edən şəhid ailələrinin, mübaribə iştirakçılarının, şəhər və rayon fəallarının, habelə aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirakı ilə təşkil olunan Forum Ağstafa Aqrar Sənaye Kompleksində keçirilib.

Tədbirdə Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş sektorunun müdiri Vüsal Quliyev, Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov və digər rəsmi qonaqlar iştirak ediblər.

Qonaqlar tədbirdən öncə Ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, Şəhidlər xiyabanını ziyarət ediblər.

Forum Dövlət Himninin səsləndirilməsi və Azərbaycanın suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etməklə işə başlayıb.

Tədbiri giriş sözü ilə Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucov açaraq növbəti Zəfər Forumunun Ağstafada keçirilməsindən məmnunluq duyduğunu bildirib.

O, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun düşmən üzərində qazandığı parlaq Qələbədən, Vətən müharibəsində Azərbaycan oğullarının göstərdiyi şücaət nümunələrindən söhbət açıb.

Prezident Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş sektorunun müdiri Vüsal Quliyev çıxış edərək Müzəffər Ali Baş Komandanın Vətən müharibəsində göstərdiyi əzm, səbr və gücün xalqımıza ruh yüksəkliyi bəxş etdiyini vurğulayıb.

Vətən müharibəsinin qələbəsinin Azərbaycan xalqının birliyinin Zəfər simvolu olduğunu deyən V.Quliyev Prezident İlham Əliyevin diplomatik cəbhədə də ölkə maraqlarını məharətlə və qətiyyətlə müdafiə etdiyini qeyd edib.

O, Zəfər Forumlarının bütün ölkəni əhatə edəcəyini, qazandığımız Zəfər haqqında yerlərdə insanların, xüsusilə gənc nəslin illər keçdikdə daha dolğun məlumatlanmasına şərait yaradılacağını bildirib. Sektor müdiri qeyd edib ki, haqqın şanlı zəfərinə möhür vurmaq hər xalqa, hər



dövlətə və hər Prezidentə - Ali Baş Komandana nəsib olmur.

Forumda iştirak edən rayonlardan gələn Milli Qəhrəman valideynlərinin, şəhid ailələrinin və müharibə iştirakçılarının çıxışları dinlənilib.

Tədbirdə hərbi vətənpərvərlik musiqiləri ifa olunub, Vətən müharibəsinə aid səhnələr nümayiş etdirilib.

Sonda forum iştirakçıları adından Prezident İlham Əliyevə müraciət edilib, onlar xalqımıza Zəfər sevincini yaşatdığına görə dərin ehtiramlarını bildiriblər.

Xatırladaq ki, növbəti forumlar Qusar, Ağdam, İsmayıllı, Sabirabad və Bakıda keçiriləcək.

# Zaxarovadan Zatulin və Simonyanın Ermənistana giriş qadağasına münasibət

***Rusiya Xarici İşlər Nazirliyi (XİN) Dövlət Dumasının ermənipərəst deputatı Konstantin Zatulin və erməni əsilli jurnalist Marqarita Simonyanın Ermənistan ərazisinə girişinə qadağa qoyulmasına münasibət bildirib.***

Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə bildirib ki, bu barədə məlumatı çaşqınlıqla qarşılayıblar.

"Xatırladım ki, söhbət Dövlət Dumasının deputatı və Rusiya KİV-in baş redaktorundan gedir. Biz diplomatik kanallarla dərhal Ermənistan tərəfinə bu məlumatın rəsmi şəkildə təsdiq



edilməsi və izahat verilməsi üçün müraciət etdik. Hesab edirik ki, bu məlumat təsdiqini tapacağı təqdirdə, buna müttəfiqlik münasibətlərinin xarakterinə müvafiq olaraq qiymət veriləcək. Nə vaxt ki, rəsmi cavab alacağıq, o zaman atacağımız addımları, cavabımızı müəyyən edəcəyik", - Rusiya XİN sözçüsü qeyd edib.

Zaxarova həm Zatulinin, həm də Simonyanın Rusiya-Ermənistan ikitərəfli müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsinin tərəfdarı olduğunu söyləyib: "Mənə elə gəlir ki, buna heç bir şübhə olmamalıdır. Mən heç vaxt onlardan bunun əksi olan bəyanatlar eşitməmişəm. Ona görə də, istəməzdim ki, indiki şərtlərdə, Qərbin məqsədyönlü şəkildə Cənubi Qafqazda vəziyyəti gərginləşdirməyə cəhd etdiyi dövrdə süni bəhanələr uydurulsun", o deyib.

# Nazir müavini: "Gediş haqqı məsələsi sərnişindaşımaya investisiya axınına mane olur"

***"Nazirlik olaraq biz şəhərdaxili sərnişindaşımaya zəruri investisiya axınını görə bilmirik. Buna müəyyən məsələlər, o cümlədən gediş haqqı məsələsi mane olur".***



"Report" xəbər verir ki, bu barədə rəqəmsal inkişaf və nazirinin müavini Rəhman Hümmətov nəqliyyatla bağlı problemlərin ictimai müzakirəsində deyib.

Müzakirələrdə nazirlik yanında İctimai Şuranın üzvləri, nəqliyyat sahəsi üzrə ekspertlər iştirak edib. R.Hümmədovun sözlərinə görə, investisiyaların azdığı bu sahədə problemlərə səbəb olur: "Son nəticədə şəhərdə digər növ sərnişindaşıma fəaliyyətlərinin şahidi oluruq. Hamımız xatırlayır ki, müəyyən dövrlərdə, 90-cı illərin əvvəllərində nəqliyyat sektoruna vəsaitlərin gəlməməsinə görə biz nəqliyyatda istifadə edilən avtomobillərin köhnəlməsinin şahidi olmuşuq. Sonrakı dövrlərdə müəyyən tədbirlər sayəsində avtobusların yenilənməsinin şahidi olduq".

Nazir müavini əlavə edib ki, digər məsələ sürücülərin təlim-tədrisi ilə bağlıdır: "Onların sertifikasiyadan keçirilməsi üçün işlər görülüb".

# Hikmət Hacıyev İsrail səfiri ilə görüşüb

***İsrailin Azərbaycandakı səfiri Corc Dik Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə görüşüb.***

"Report" xəbər verir ki, səfir bu barədə tviterdə yazıb.

O, H.Hacıyevlə ikitərəfli və regional məsələlər üzrə fikir mübadiəsi aparmaqdan məmnunluğunu bildirib.

# Vilayət Eyvazov onu bölmə rəisi təyin etdi

***Daxili işlər orqanlarında kadr dəyişikliyi olub.***

"Unikal"ın əldə etdiyi məlumata görə, daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazovun müvafiq əmrinə əsasən, polis polkovnik-leytenantı Allahverdiyev Vilayət Hüseyn oğlu Astara rayon Polis Şöbəsinin rəis müavini vəzifəsindən azad olunub.

Nazirin digər əmri ilə V. Allahverdiyev Balakən rayon Polis Şöbəsinin Qabaqçöl Polis Bölməsinin rəisi təyin edilib.

***Tural Əhmədov***

# Bu marşrut xəttində gedişhaqqı 10 qəpik endirildi



***Bu gün Bakıda fəaliyyətə başlayan E1 ekspres marşrut xəttində gediş haqqı daha əvvəl elan edildiyi kimi 60 qəpik deyil, 50 qəpik olacaq.***

Bu barədə "Unikal"a Bakı Nəqliyyat Agentliyindən (BNA) məlumat verilib.

Bildirilir ki, bu addım E1 xəttinin cəlbediciliyini daha da artırmaq və vətəndaşları qanunsuz sərnişindaşımalardan çəkindirmək məqsədilə edilib.

Xatırladaq ki, yeni xətt üzrə avtobuslar metronun "Xalqlar Dostluğu" stansiyasından başlayaraq Qara Qarayev prospekti - "Koroğlu" metro stansiyası - Heydər Əliyev prospekti - Yusif Səfərov küçəsi - Neftçilər prospekti - "Azneft" dairəsi - Bibiheybət -Lökbatan Nəqliyyat Mübadilə Mərkəzi istiqamətində hərəkət edəcək.

Marşrut xətti üzrə sərnişindaşımaları "BakuBus" MMC-nin istismarında olan avtobuslarla icra ediləcək. İlkin mərhələdə daşımalara 10 ədəd avtobus cəlb ediləcək. Xətt üzrə avtobuslar səhər saat 06:30-dan axşam saat 18:30-a qədər fəaliyyət göstərəcək. Avtobuslar hərəkət sxemi üzrə bütün dayanacaq məntəqələri üzrə deyil, yalnız əvvəlcədən müəyyən edilmiş sərnişin tələbatı daha çox olan məntəqələrdə dayanacaq.



## Binəli Yıldırım İlham Əliyevə təşəkkür etdi

***"Qəza anından etibarən mənimlə çox yaxından maraqlanan, dəstək verən dost və qardaş Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edirəm".***

"Unikal" xəbər verir ki, bunu Türkiyənin Ədalət və İnkişaf Partiyası sədrinin müavini Binəli Yıldırım deyib.

Qəzadan sonra ilkin müdaxilənin Azərbaycanda edildiyini deyən AKP sədrinin müavini anında helikopterlə Bakıya Mərkəzi Kliniki Xəstəxanaya çatdırıldığını, Azərbaycanda edilən ilkin müdaxilələrdən sonra xüsusi təyyarə ilə Türkiyəyə gətirildiyini və müalicəsinin burada davam etdirildiyini bildirilib.

Binəli Yıldırım keçirdiyi çətin dövrdə ona dəstək göstərən hər kəsə təşəkkürünü bildirərək müalicəsinin evdə davam etdiriləcəyini söyləyib.

Xatırladaq ki, B.Yıldırım və Ş.Ayrım oktyabrın 20-də Cəbrayıldan Zəngilan Beynəlxalq Hava Limanına qayıdarkən qəzaya düşüblər. Hadisədən sonra Türkiyə rəsmiləri helikopterlə paytaxt Bakıdakı xəstəxanaya aparılıb. Azərbaycan Prezidenti İlham Əliyev Binəli Yıldırım və Şamil Ayrıma müalicə olunduqları xəstəxanada baş çəkib. Daha sonra onlar təcili yardım təyyarəsi ilə İstanbula yola salınıb.

## Daxili İşlər Nazirliyinə yeni səlahiyyət verildi

***Daxili İşlər Nazirliyinə yeni səlahiyyət verilib.***



"Unikal" xəbər verir ki, bu, Prezident İlham Əliyevin müvafiq fərmanında əksini tapıb.

Fərmana əsasən, Daxili İşlər Nazirliyi Azərbaycan Respublikası vətəndaşlarının yeni nəsil şəxsiyyət vəsiqələrinin hazırlanması məqsədi ilə bu sahədə beynəlxalq təcrübəyə malik olan hüquqi şəxsin seçilməsini və onunla müvafiq müqavilənin imzalanmasını təmin etməlidir.

## Büdcənin tətbiqi barədə fərmana dəyişiklik edilib

***Prezident İlham Əliyev "2022-ci il dövlət büdcəsi haqqında" 3 dekabr 2021-ci il tarixli qanunun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" 23 dekabr 2021-ci il tarixli fərmanında dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı dövlət başçısı yeni fərman imzalayıb.

# "Qiymətləri cilovlamaq qeyri-mümkündür"

## Vahid Əhmədov: "Anti-inflyasiya tədbirləri haqqında qərarlar olsa da, qiymət artımı davam edir"

***Milli Məclisin deputatı Vahid Əhmədov "Unikal"a müsahibə verib. O, 2023-cü ilin dövlət büdcəsinin əsasən hansı sahələri əhatə edəcəyindən, gələn il maaş və pensiyaların nə qədər artırılacağından, qiymətlərin bahalaşmasından və digər məsələlərdən danışıb.***

***-Artıq 2023-cü ilin dövlət büdcəsi Milli Məclisə daxil olub. Gələn həftə parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirəyə çıxarılacaq. Vahid müəllim, növbəti ilin büdcəsi daha çox hansı sahələri əhatə edəcək?***

-2023-cü ilin dövlət büdcəsinə baxanda ilk növbədə bu ilin 8 ayını nəzərə almaq lazımdır ki, bu müddətdə Azərbaycan iqtisadiyyatında vəziyyət necə olub. Bu dövrdə ümumi iqtisadi artım 5,8 faizdir. Həmçinin, neft sektorunda 10,3 faiz, qeyri-neft sektorunda isə 9 faiz artım qeydə alınıb. Bu, dünyada gedən proseslər fonunda çox yaxşıdır. Bu ilin səkkiz ayının rəqəmləri onu deməyə imkan verir ki, gələn il də göstəricilər istənilən səviyyədə olacaq. 2023-cü il üçün dövlət büdcəsinin gəlirləri 30,7 milyard manat, xərcləri isə 33,3 milyard manat proqnozlaşdırılır. Büdcə kəsiri ümumi daxili məhsulun 2,4 faizini təşkil edir ki, bu da çox kiçik rəqəmdir. Büdcədə sosialyönlü xərclər çox artırılıb. 2023-cü ildə bu məqsədlə 15,2 milyard manat vəsait nəzərdə tutulur ki, bu da 2022-ci illə müqayisədə 1,3 milyard manat və ya 9,3 faiz çoxdur.

Bu il inflyasiyanın ikirəqəmli olacağı gözlənilir. Bununla yanaşı, ərzaq qiymətləri kifayət qədər bahadır. Hələki qiymətləri cilovlamaq qeyri-mümkündür. Anti-inflyasiya tədbirləri haqqında qərarlar olsa da, qiymət artımı davam edir. Bu baxımdan, gələn ilin dövlət büdcəsində ən ciddi məsələ ərzaqla bağlıdır. Dövlət büdcəsində kənd təsərrüfatının inkişafına ayrılan vəsait 1,2 milyard manat nəzərdə tutulub. Bu da əsasən ərzaq buğdasının və digər kənd təsərrüfatı məhsullarının Azərbaycanda istehsal edilməsi ilə bağlıdır. Gələn il ölkənin müdafiə qabiliyyətinin gücləndirilməsi və milli təhlükəsizliyinin təmin edilməsi üçün dövlət büdcəsindən 5,3 milyard manat vəsait ayrılması proqnozlaşdırılır. Bununla yanaşı, təhsil və səhiyyə sahəsinə də əlavə vəsaitlər ayrılacaq. Ən ciddi məsələlərdən biri işğaldan azad olunmuş ərazilərdə bərpa işlərini həyata keçirməkdir. 2023-cü ildə işğaldan azad edilmiş ərazilərin bərpası üçün 3,0 milyard manat vəsait nəzərdə tutulur. Bu da 2022-ci illə müqayisədə 12,4 faiz çoxdur. Dövlət büdcəsi əsasən neft gəlirləri hesabına formalaşır. Növbəti ilin dövlət büdcəsində neftin 1 barelinin qiyməti 50 dollar götürüləcək. Həmçinin, Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert 11,3 milyard manat nəzərdə tutulur ki, bu da 2022-ci illə müqayisədə 237,5 milyon manat azdır. Bu da onunla bağlıdır ki, neft gəlirləri kifayət qədər böyükdür. Ümumilikdə, gələn ilin dövlət büdcəsinin rəqəmləri normaldır.

***-Siz də qeyd etdiniz ki, 2023-cü ilin dövlət büdcəsi sosialyönlü olaraq proqnozlaşdırılıb. İndiki qiymət artımlarını nəzərə alsaq maaş və pensiyaların nə qədər artırılacağı gözlənilir?***

-Maaş və pensiyalar hər il təxminən 20 faiz artırılır. İndi inflyasiya 14 faizə yaxındır. Ərzaq məhsullarının inflyasiyası isə 20 faizi keçib. Elə məhsullar var ki, onun inflyasiyası 30-50 faiz arasındadır. Hökumət çalışır ki, inflyasiyanın qarşısını alsın, maaş, pensiya və müavinətlər artırılsın. Bu baxımdan, 2023-cü ilin dövlət büdcəsi də sosialyönümlüdür. 2023-cü ildə bu məqsəd üçün 15,2 milyard manat vəsait nəzərdə tutulur ki, bu da 2022-ci illə müqayisədə 1,3 milyard manat çoxdur. Bu vəsait inflyasiyanı, qiymət artımını nəzərə alaraq hesablanıb. Əsas məsələ kənd



təsərrüfatı sahəsi ilə bağlıdır ki, insanların ərzaq problemi müəyyən qədər ödənilsin. Doğrudur, bunu tam ödəmək mümkün deyil. Gələn il ərzaq təhlükəsizliyi tədbirləri üçün 625,2 milyon manat vəsait nəzərdə tutulub ki, bu da 2022-ci illə müqayisədə 38,6 faiz çoxdur. Bunların hər biri qiymət artımının, inflyasiyanın qarşısını almaq üçündür. Ümumiyyətlə, dövlət büdcəsində sosialyönümlü layihələrə və dövlətin təhlükəsizliyinin təmin edilməsinə diqqət yetirilir.

***-Gələn il azad edilmiş ərazilərin bərpasına 3 milyard manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu ərazilərin daha tez bərpa olunması və aparılan işlərin sürətləndirilməsi üçün nə qədər vəsaitə ehtiyac var?***

-Prezident İlham Əliyev çıxışlarında qeyd edib ki, Qarabağın qurulması çox uzun prosesdir. Bu işlərin görülməsinə böyük vəsait lazımdır. Son iki ildə azad edilmiş ərazilərdə görülən işləri kifayət qədər müsbət qiymətləndirirəm. Bu dövrdə həmin ərazilərdə bərpa və quruculuq işlərinə 5 milyard manata yaxın vəsait ayrılıb. Açığını desəm, hər il 3 milyard manatın ayrılması azdır. Bu vəsaiti artırmaq lazımdır. Bir məsələni də nəzərə almaq lazımdır ki, büdcənin imkanları daxilində bu vəsait ayrılır. Xarici şirkətlər də müraciət ediblər. Müəyyən işlərlə bağlı investisiya yatırmaq istəyirlər. Gələcəkdə də bu istiqamətdə işlər davam edəcək.

***-Milli Məclisin ötən iclaslarından birində Azərbaycanda maliyyə amnistiyasının tətbiq olunmasını və gəlir deklarasiyasının tətbiq edilməsini təklif etdiniz. Bu istiqamətdə hansısa işlərin görülməsi gözlənilirmi?***

- Maliyyə amnistiyasının verilməsi çox ciddi məsələdir. 30 illik müstəqillik dövründə kifayət qədər vəsait qazanan insanlar var. Həmin pulları düz, yoxsa əyri yolla qazanıblar, bu başqa mövzudur. Həmin vəsaitləri xaricə köçürürlər, orada əmlaklar alırlar, banklara yerləşdirirlər. İndi işğaldan azad olunmuş ərazilərdə bu vəsaitdən istifadə etmək olar. Çalışıb, həmin vəsaitləri Azərbaycana gətirmək lazımdır. Buna görə də maliyyə amnistiyasına ehtiyac var. Gəlir deklarasiyası da ciddi məsələdir.

***-Ərzaq təhlükəsizliyi ilə bağlı məsələyə siz də toxundunuz. Rusiya-Ukrayna müharibəsinin davam etməsi dünyada iqtisadi böhranı daha da dərinləşdirir. Bu isə Azərbaycana təsirsiz ötüşmür. Belə ki, ölkəmizdə qiymət artımları davam edir. Gələn il qiymət artımları ilə mübarizə üçün hansı işlərin görülməsi nəzərdə tutulub?***

-Hazırda dünyada gedən proseslər onu göstərir ki, qiymət artımı davam edəcək. Azərbaycan xaricdən kifayət qədər məhsul idxal edir. Avropa dövlətlərində də qiymət artımları var. Onların Rusiyadan idxal etdikləri qaz kəksin azalıb, qiymət yüksəlib. Oradakı bir sıra zavod və fabriklər istehsalı dayandırıb. Bu, dünyada olan problemdir. Dünyanın bir hissəsi olduğumuz üçün bizə də təsir göstərir. Xaricdən məhsul aldığımız üçün inflyasiya idxal edirik. Bu bir müddət davam edəcək. Rusiya-Ukrayna müharibəsinin bu ilin sonuna yekunlaşması yaxşı olardı. Ticarət əlaqələrinin yenidən qurulması çox vacibdir. Belə ki, iqtisadi zəncir qırılıb. Onu qurmaq üçün müəyyən qədər vaxt lazımdır. Bəzən ərzaq qıtlığının ola biləcəyi ilə bağlı fikirlər səsləndirilir. İnanmıram ki, Azərbaycanda hansısa qıtlıq olsun. Ölkəmizin 56 milyard dollara yaxın valyuta ehtiyatı var. O baxımdan istənilən dövlətdən məhsul alıb gətirmək olar. Amma qiymət artımları üzərində işləmək lazımdır. Qiymət artımı elə olsun ki, insanlar gündəlik tələbatını ödəyə bilsin, problem olmasın.

***Anar Kəlbiyev***

# Cahangir Əsgərovun bankı ətrafında müəmma

***Azərbaycanda əsasən korporativ sahədə aktiv olan "Premium Bank" ASC 2022-ci ilin ilk 9 ayı ərzində aktivlərində mühüm artımlara nail olsa da, onun müştərilərə verilən kreditlərinin həcmi kiçilib.Bu barədə onun təqdim etdiyi rüblük maliyyə göstəricilərindən məlum olur.***

Belə ki, 2022-ci ildə bu bankın aktivləri ilin əvvəli ilə müqayisədə 5.5% artmaqla 802.13 mln. manata çatıb. Bankın 3 ay öncəki kiçilməni (aktivlər 682.59 mln. manata düşmüşdür) necə kompensasiya etdiyi və aktivlərdə son üç ayda bu dinamikanı necə əldə etdiyi maraq doğurur.

Bankın müştərilərə verdiyi kreditlərin həcmi ilin əvvəli ilə ani likvidlik imkanına malikdir.

"Premium Bank" ilin ilk doqquz ayında öhdəliklərini 574.4 mln. manatdan 619.42 mln. manata çatdırıb. Burada da bank üçün əsas maliyyə mənbəyi yenə də depozitlərdir. Onun depozitlərində 331.48 mln. manat fiziki və 244.29 mln. manat hüquqi şəxslərə aiddir. Depozitlərin isə cəmi 251.55 mln. manatı müddətlidir, qalanı tələbli depozitlərdir.

Bankın kapitalının həcmi 182.72 mln. manat olmaqla, o cümlədən 154.6 mln. manatı səhm kapitalı, 14.04 mln. manatı bölüşdürülməmiş mənfəət və 14.08 mln. manatı kreditlər və digər tələblər üzrə mümkün zərərlərin ödənilməsi üçün adi ehtiyatlar təşkil edib.

dir ki, "Premium Bank" ASC-də Cahangir Əsgərovun xanımına məxsus 130,6 milyon manat var.

Onu da bildirək ki, "Premium Bank" 1993-cü ildə "AZAL Bank" adı ilə yaradılıb. 2008-ci ildə adı dəyişdirilərək "Silk Vey Bank" olub. 2018-ci ildə bankın adı yenidən dəyişdirilib və "Premium Bank" adlandırılıb.

Onu da deyək ki, Z.Həmzəyeva həm də Azərbaycanda kosmetika məhsullarının istehsalçısı olan "Gazelli Group"un rəhbəridir.

Ümumiyyətlə isə Cahangir Əsgərovun ailə biznesi kifayət qədər böyük və çoxşaxəlidir. Üstəlik, bu biznes günbəgün genişlənir, çiçəklənir, baxmayaraq ki, Əsgərovun rəhbəri olduğu dövlət şirkəti -



müqayisədə 3-cü rübün sonuna 5.9% azalmaqla 477.99 mln. manata düşüb. Bankın müştərilərə verdiyi kredit portfelinə əsas azaldıcı təsir amili onun biznes krediti bazarındakı iştirakının zəifləməsidir. Bankın biznes kreditləri üzrə portfeli 443.1 mln. manat olmaqla, ilin əvvəlindən 33.93 mln. manat, yaxud 7.1% azalıb.

"Premum Bank" həcmlə ifadədə az da olsa, istehlak və ipoteka kreditlərinə güc verib ki, bu da onların dinamikasında böyük fərqlə hiss olunur. Bank istehlak kreditlərini ilin ilk 9 ayında 2.4 dəfə artırmaqla 4.1 mln. manata, ipoteka kreditlərini isə 5.6% artımla 30.79 mln. manata yüksəldib.

"Premium Bank"ın 25 milyon civarında digər bankda depozitləri var, lakin bu investisiya xarakterli olmasına bənzəmir. Belə ki, bu məbləğ

Daha bir maraqlı məqam: bu ilin ilk 3 rübü ərzində "Premium Bank" ASC-nin xalis mənfəəti 4 milyon 12 min manat olub. Ötən ilin eyni dövrü ilə müqayisədə bankın mənfəəti 42,7% və ya 2 milyon 987 min manat azalıb.

Belə ki, 2021-ci ilin ilk 3 rübü ərzində "Premium Bank"ın xalis mənfəəti 6 milyon 999 min manat olub. "Premium Bank"ın xalis mənfəəti 2020-ci ilin eyni dövründə isə daha çox - 7 milyon 650 min manat təşkil edib.

Məlumat üçün bildirək ki, "Premium Bank" "Azərbaycan Hava Yolları" (AZAL) Qapalı Səhmdar Cəmiyyətinin prezidenti Cahangir Əsgərovun ailə biznesinə daxildir. Məsələ burasındadır ki, bankın əsas səhmdarı olan Zərifə Həmzəyeva həyat yoldaşıdır. Hazırda bankın səhmlərinin 84,5%-i məhz Həmzəyevaya məxsusdur. Bu isə o deməkAZAL ilbəil zərər etməkdə, milyardlarla manatlıq borc bataqlığında çabalamaqdadır. Bu ilin mayında məlum olub ki, "Azərbaycan Hava Yolları" QSC-nin 2021-ci ilin əvvəlinə olan borclarının həcmi 2.18 mlrd. manatdan yuxarıdır! Bu barədə "Deliotte" audit şirkətinin AZAL-ın 2020-ci il üzrə maliyyə hesabatında bildirilir.

Rəydə qeyd edilib ki, bu borcların 1 184.11 mln. manatı ekvivalenti ABŞ dollarında, 672.52 mln. manatı milli valyutada və 39.39 mln. manat ekvivalenti isə avrodadır.

Cahangir Əsgərovun ailə biznesi şar kimi şişdiyi, günbəgün çiçəkləndiyi vaxtda onun rəhbəri olduğu dövlət şirkətinin isə milyardlarla manatlıq borc bataqlığına yuvarlanması düşündürücü məsələdir və ciddi araşdırmaya möhtacdır.

***Toğrul Əliyev***

# Əhməd İsmayılov: "Azərbaycan mediası yeni islahatlar mərhələsinə qədəm qoyub"



***"Azərbaycan mediası müasir çağırışlara uyğunlaşmaq və daha çevik reaksiya vermək məqsədilə bir müddətdir yeni islahatlar mərhələsinə qədəm qoyub".***

Bunu Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov bu gün Bakı şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi dövlətlərin Audiovizual Media üzrə Tənzimləyici Orqanlarının 1-ci Toplantısında deyib.

Onun sözlərinə görə, hazırda müasir dünyanın yeni trendinə çevrilmiş rəqəmsal media məkanı günü-gündən genişlənməkdə və ölkələrin milli informasiya mühitinə öz təsirini göstərməkdədir. Qloballaşan dünyada yüksək sürətlə baş verən informasiya mübadiləsi prosesi demək olar ki, bütün ölkələri əhatə etməkdədir.

"2021-ci il yanvarın 12-də Azərbaycan Respublikası Prezidenti "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalamış və bununla da media sahəsində köklü dəyişikliklərin yeni mərhələsi başlanıb. Həmin Fərmana əsasən, yaradılmış Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi media subyektlərinin davamlı inkişafına yönəlik strategiya həyata keçirməkdədir.

Agentlik fəaliyyətinin əsas hədəflərindən biri kimi media subyektlərinin iqtisadi müstəqilliyinin təmin edilməsi məsələsini daim diqqətdə saxlayır, bu məqsədlə müvafiq təhlil və araşdırmalar aparır, həmçinin beynəlxalq informasiya mübadiləsində yeni imkanlar açan müasir informasiya-kommunikasiya texnologiyalarının, innovasiyaların tətbiqinə, vətəndaşın, cəmiyyətin və dövlətin informasiya təhlükəsizliyinin təmin olunmasına istiqamətlənmiş layihələrin həyata keçirilməsi üçün tədbirlər görür", - deyə o qeyd edib.

Ə.İsmayılov vurğulayıb ki, bu il iyul ayının 22-də Azərbaycanın müstəqil dövlətçilik tarixində ilk dəfə Azərbaycan media nümayəndələri öz peşə bayramlarını ölkəmizin mədəniyyət paytaxtı, milli mətbuatımızın inkişafında xüsusi yeri olan, Qarabağın tacı Şuşa şəhərində Beynəlxalq Media Forum keçirməklə qeyd etdilər:

"Şuşa şəhərində keçirdiyimiz Beynəlxalq Media Forumda dünyanın 20-yə yaxın ölkəsindən gəlmiş xarici media nümayəndələri və ekspertlər, beynəlxalq media təşkilatlarının təmsilçiləri ilə müasir media mühitinə dair bütün aktual mövzular ətrafında fikir mübadiləsi apardıq. Cənab Prezident İlham Əliyev tərəfindən Azərbaycan jurnalistlərinə ünvanlanmış müraciətdə Vətən müharibəsi zamanı Azərbaycan mediasının informasiya cəbhəsində mübarizə apararaq, kütləvi dezinformasiya hücumlarının qarşısının alınmasında, cəmiyyətimizin operativ və düzgün məlumatlandırılmasında böyük rolu olduğu vurğulanıb, həmçinin ölkə mediasının inkişafı ilə bağlı olduqca əhəmiyyətli istiqamətlər və prinsiplər müəyyənləşdirilib.

Azərbaycan mediasının beynəlxalq informasiya məkanına inteqrasiyası dünyamızın reallıqları fonunda daha böyük əhəmiyyət kəsb edir. Bu gün Azərbaycan və Türkiyənin birgə media platforması mövcuddur.

Birgə Media Platformamızın məqsədi Azərbaycan-Türkiyə ikitərəfli əlaqələrini və əməkdaşlığını media və kommunikasiya sahəsində gücləndirməklə strateji media ortaqlığının yaradılmasıdır. Bu istiqamətdə əsas fəaliyyətimiz ölkələrimiz haqqında həqiqətlərin beynəlxalq mediada dünya ictimaiyyətinə düzgün çatdırmaqdır. Qeyd etmək yerinə düşər ki, bu ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri çərçivəsində Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə Özbəkistan Respublikası Prezidentinin Administrasiyası yanında İnformasiya və Kütləvi Kommunikasiyalar Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb.

Həmçinin bu ilin avqustunda Qazaxıstan Respublikasının Prezidenti Kasım-Jomart Tokayevin Azərbaycana rəsmi səfəri çərçivəsində "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ilə Qazaxıstan Respublikası İnformasiya və İctimai İnkişaf Nazirliyi arasında Anlaşma Memorandumu" imzalanıb.

Türk Dövlətləri Təşkilatının üzvü olan bu qardaş respublikalarla imzaladığımız anlaşma memorandumları çərçivəsində media məkanında milli maraqların birgə təşviqi və qorunmasına yönəlmiş ikitərəfli əməkdaşlıq mexanizmlərinin formalaşdırılması, təcrübə mübadiləsinin genişləndirilməsi, o cümlədən media sahəsində qarşılıqlı əlaqələrin yaradılması nəzərdə tutulur.

Bununla yanaşı, fəaliyyət dövrü ərzində MEDİA Agentliyi müxtəlif istiqamətlərdə icra edilən çoxsaylı layihələr çərçivəsində ADA Universiteti, "Al Jazeera", "Haber Global", Türk Əməkdaşlıq Koordinasiya Agentliyi, "Anadolu" Agentliyi kimi nüfuzlu yerli və beynəlxalq qurumlarla etibarlı əməkdaşlıq əlaqələri qura bilmişdir. Bizim öz ölkələrimiz haqqında həqiqətləri beynəlxalq auditoriyaya çatdırmaq üçün bütün Türk Dünyasının jurnalistləri arasında həmrəyliyə ehtiyacımız var. Media subyektlərimiz öz peşəkar missiyasını bütün müstəvilərdə vahid ideologiya ilə yerinə yetirdiyi təqdirdə səsimiz daha güclü olacaq və daha aydın eşidiləcək. Türk dünyasının birlik, həmrəylik və əməkdaşlıq ideyasını rəhbər tutaraq möhkəmlənən əlaqələrinin media sahəsində də uğurla davam edəcəyinə inanırıq. Beynəlxalq aləmi türk dünyası haqqında obyektiv informasiya ilə təmin etmək üçün biz peşəkarlığımızı və sayıqlığımızı artırmalı, birliyimizi möhkəmləndirməliyik".



# Hərbçilərdən rüşvət alan hərbi hakim həbs olundu

***Hərbi qulluqçulardan rüşvət alan N saylı hərbi hissənin zabiti, hakim Vəli Quliyev həbs olunub.***

"Unikal" APA-ya istinadən xəbər verir ki, hərbi hissəsinin tibb məntəqəsində həkim işləyən Vəli Quliyev müxtəlif vaxtlarda hərbi qulluqçulardan pul alaraq onları müalicə adı ilə hospitala göndərib.

Hüquq-mühafizə orqanları tərəfindən keçirilən araşdırma zamanı Vəli Quliyevin əməllərinin üstü açılıb. Xəstəlik sənədi verilən hərbçilərin əksəriyyətinin müalicəyə ehtiyacının olmadığı, rüşvət verməklə hospitala göndərildikləri məlum olub.

Vəli Quliyev barəsində Cinayət Məcəlləsinin 311.3.2 (rüşvət alma təkrar törədildikdə) maddəsi ilə cinayət işi başlanaraq barəsində həbs-qətimkan tədbiri seçilib.

Qeyd edək ki, Quliyev Vəli Bəkir oğlu Vətən müharibəsindəki xidmətlərinə, Qubadlının və Füzulinin azad olunmasına görə medalları ilə təltif olunub.

# Nazir müstəntiqi rəis təyin etdi

***Quba Rayon Polis Şöbəsində (RPŞ) yeni təyinat olub.***



"Qafqazinfo" xəbər verir ki, polis kapitanı Vasif Zeynallı RPŞ-nin İstintaq Bölməsinin rəisi təyin olunub. Bu barədə daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb.

Qeyd edək ki, V.Zeynallı bu təyinatdan öncə Abşeron Rayon Polis İdarəsində müstəntiq kimi çalışıb.

# Azərbaycandan 1980 baş at ixrac olunub



***Bu il Azərbaycandan 1980 baş at ixrac olunub.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli keçirdiyi mətbuat konfransında deyib.

Onun sözlərinə görə, ölkə indi atlar arasında manqo xəstəliyindən azad status əldə edib: "Əvvəl bu xəstəliklə əlaqədar atların ixracına icazə verilmirdi. Artıq bu xəstəliklə bağlı atlar arasında stabillik əldə olunub".

# Əbülfəs Qarayevdən qalan "ənənə" Anar Kərimovun vaxtında da yaşayır

## Hesablama Palatası yoxlama apardı və məlum oldu ki, dövlətin kino sahəsinə ayırdığı pulların taleyi ətrafında müəmmalar davam edir

***Yola salmaq üzrə olduğumuz həftə Hesablama Palatası bövlət sifarişi ilə çəkilən filmlərlə bağlı maliyyə nöqsanlarını açıqladı. Bu barədə yayılan məlumatda bildirilirdi ki, Mədəniyyət Nazirliyi xətti ilə dövlət sifarişli filmlərin çəkilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin həcmi 2020-ci ildə 4524,0 min manat, 2021-ci ildə 6520,8 min manat, cəmi 11044,8 min manat təşkil edib.***

O da bildirilib ki, auditin əhatə etdiyi illərdə istifadə edilmiş vəsaitin 17,0%-i 12 özəl studiyanın payına düşüb, qalan hissəsi isə 6 dövlət studiyası üzrə müxtəlif filmlərə, həmin studiyalar və Mədəniyyət Nazirliy tərəfindən tədbirlərə yönəldilib. Auditlə dövlət studiyalarından C.Cabbarlı adına "Azərbaycanfilm", "Salnamə", "Mozalan" kinostudiyaları, həmçinin "Narimanfilm" kinostudiyası tərəfindən dövlət vəsaiti hesabına çəkilən ümumilikdə 7 filmlə bağlı 2269,4 min manat, həmçinin Nazirlik və studiyalar tərəfindən 71 tədbirin həyata keçirilməsi ilə bağlı 2154,2 min manat, ümumilikdə isə 4423,5 min manat məbləğində vəsait əhatə olunub ki, bu da büdcədən ayrılan cəmi vəsaitin 47,5%-ni təşkil edib.



Bəs nöqsanlar nələrdir? Məsələn, C. Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası tərəfindən istehsal olunan "Məryəm" filmi təsdiq olunmuş smetasında nəzərdə tutulmadığı halda, post-prodakşn işlərinə nəzarət və işlərin qəbulu üçün düzgün olmayaraq "Sinema Evi" MMC-nin əməkdaşına 4175,0 manat ödəniş edib, "Görünməyən qəhrəmanlar" sənədli filmlərinə ayrılmış vəsaitdən qalan 5881,74 manat dövlət büdcəsinə qaytarılmayıb.

Digər maliyyə nöqsanlarından bəziləri isə belədir:

"Debüt" studiyası: Azərbaycan Respublikası Vergi Məcəlləsinin tələblərinə əməl edilməyərək 16774,0 manat, "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməyərək 11591,0 manat, ümumilikdə 28365,0 manat, eləcə də müxtəlif xidmətlərin göstərilməsinə dair bağlanmış 4 müqavilə çərçivəsində yerinə yetirilməyən öhdəliklər üzrə ödənilmiş 15530,0 manat, studiya üzrə cəmi 43895,0 manat;

Yenə "Debüt studiyası" MMC tərəfindən Azərbaycan Respublikası Vergi Məcəlləsinin tələblərinə əməl edilməyərək 3545,0 manat, "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməyərək 4265,0 manat, "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməyərək 175,0 manat, ümumilikdə 7985,0 manat;

Yaxud "Narimanfilm" kinostudiyası tərəfindən Azərbaycan Respublikası Vergi Məcəlləsinin tələblərinə əməl edilməyərək 3669,53 manat ödənilməmiş vəsait;

"Filming Azerbaijan" MMC ilə fiziki şəxs arasında kompüterlər üçün ehtiyat hissələrinin alınmasına dair bağlanmış müqavilə çərçivəsində yerinə yetirilməyən öhdəliyə görə ödənilmiş 4990,0 manat vəsaitin dövlət büdcəsinə bərpa edilməsi;

"Azərbaycanfilm" kinostudiyası tərəfindən çatışmazlıq müəyyən edilmiş 9005,76 manat məbləğində aktivlər üzrə 645,46 manat məbləğində aktivin natura formasında bərpası, 1006,54 manat məbləğində aktivin 29.12.2021-ci il tarixində silinməsi ilə bağlı aktın təqdim edilməsi, 5890,56 manat məbləğində aktivin Nazirliyin 05.10.2021-ci il tarixli razılıq məktubuna əsasən istehsalın dayandırılması səbəbindən yenisi ilə əvəz olunması, 1463,2 manat məbləğində aktivin isə inventarizasiya zamanı texniki səhv nəticəsində qeyd və hazırda bu avadanlıqların anbarda olması ilə bağlı arayışın təqdim edilməməsi və s.

Xatırladaq ki, Mədəniyyət Nazirliyi xətti ilə kino sahəsinə ayrılan vəsaitlərlə bağlı nöqsanlar sabiq nazir Əbülfəs Qarayevin dönəmindən başlayıb və belə çıxır ki, hazırkı nazir Anar Kərimovun zamanında da bu "ənənə" pozulmayıb.

Bir az da dəqiqləşdirək. Bu ilin mayında Milli Məclisin iclasında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Rüfət Quliyev kino sahəsinə ayrılan 5-6 milyon manatla yalnız cizgi filmi çəkməyin mümkünlüyünü vurğulamışdı. Buna cavab olaraq isə Hesablama Palatasının sədri Vüqar Gülməmmədovun səsləndirdiyi fikirlər rezonans doğurmuşdu. Belə ki, Palata sədri iclasda kino çəkilməsinə ayrılan vəsaitin artırılması təklifinə belə münasibət bildirmişdi: "Rüfət müəllim kino çəkilməsinə vəsaitin artırılmasını təklif edir. Amma biz hesab edirik ki, kinoya ayrılan pulu yarı-yarıya kəsmək olar. Bu, indiki şəraitdə bizim fikrimizdir. Hesablama Palatasının rəyinin 121-ci səhifəsində kino çəkilməsinə ayrılan vəsaitlərin necə xərclənməsi barədə məlumatlar var".

Məsələ burasındadır ki, Hesablama Palatası tərəfindən dövlət sifarişi ilə filmlərin çəkilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin istifadəsinin auditinin nəticələrinə görə, kinonun normativ-hüquqi və iqtisadi bazasını təşkil edən aktların təkmilləşdirilməməsi və genişləndirilməməsi, o cümlədən 18 il əvvəl qəbul edilmiş qaydaların müasir tələblərə və çağırışlara cavab verməməsi artıq, eləcə də, bu sahədə çalışan yaradıcı heyətin tam əhatə olunmaması səbəbindən qaydalarda nəzərdə tutulmayan yaradıcı hallar üzrə qonorar ödənişlərinə səbəb olub.

Qeyd edilən sahə üzrə "dövlət sifarişi" anlayışının hüquqi aktlarda konkret təsbit olunmaması, eləcə də sifarişin çərçivəsinin və istiqamətlərinin müəyyənləşdirilməməsi bəzi hallarda vəsaitlərin təyinatının dəyişdirilməsinə, bir sıra hallarda isə filmlərin başa çatdırılmayaraq konservasiyası ilə nəticələnib, ssenarilərin və kino studiyaların müsabiqə çərçivəsində seçilməsi ilə bağlı meyarların müəyyənləşdirilməməsi, komissiyanın fəaliyyətinin tənzimlənməsi ilə bağlı hər hansı bir qaydaların və ya hüquqi aktların mövcud olmaması son nəticədə vəsaitlərin "Kinematoqrafiya haqqında" qanuna əsasən kinematoqrafiyaya dövlət himayəsinin əsas formalarının, xüsusilə dövlət sifarişi əsasında çəkilən filmlərin istehsalının, yayımının və onların beynəlxalq kinofestivallarda iştirakının, kinosalnamə çəkilişinin və dövlət film fondunun maliyyələşdirilməsi ilə bağlı istiqamətlərin tam əhatə olunmaması ilə nəticələnir.

Dövlət sifarişi ilə çəkilən filmlərin seçilmə meyarlarının müəyyən olunmaması və dövlət sifarişi ilə hazırlanan filmlərin smeta xərclərinin siyahısının təsdiq edilməməsi, habelə birgə (müştərək) film istehsalının və ümumiyyətlə kino iqtisadiyyatının tənzimlənməsi barədə normativ sənədlərin olmaması büdcə vəsaitlərinin xərclənməsində şəffaflığın və hesabatlılığın təmin edilməsinə, xərclərin uçotunun düzgün qurulmasına imkan verməyib, filmlərin çəkilişi ilə bağlı ayrılmış vəsaitlər üzərində hesabatlılığın və inzibatçılığın müəyyən edilməməsi səbəbindən bu vəsaitlərin studiyalar tərəfindən təyinatının dəyişdirilməsi, ümumiyyətlə, təsdiqedici sənədlərin təqdim olunmaması kimi halların yaranmasına da səbəb olub.

Bir sözlə, Hesablama Palatasının auditindən çıxan nəticə o idi ki, Əbülfəs Qarayevin mədəniyyət naziri olduğu illərdə kinoya yarılan dövlət vəsaiti də korrupsiya predmetinə çevrilib!

Palatanın açıqladığı son nöqsanlardan isə aydın olur ki, mədəniyyət naziri postunda Qarayevi Kərimov əvəzləsə də, bu istiqamətdə dəyişən heç nə yoxdur...

***Sənan Mirzə***

# Elman Rüstəmovun 7 milyon manatlıq sıçrayışı

## Sabiq baş bankirin əlindən alınacağı iddia edilən ASC daha da böyüdü

***Bu ilin aprelində 27 ildir tutduğu Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri postundan kənarlaşdırılan Elman Rüstəmov vəzifədən azad edilərkən maraq doğuran məsələlərdən biri də nəzarətindəki bankın gələcəyi ilə bağlı idi. Söhbət sabiq baş bankirin özəl biznesinin sütununu təşkil edən "Bank Respublika" ASC-dən gedir. İddia edilirdi ki, Rüstəmov bu bank üzərində nəzarətindən məhrum ola bilər.***

Xatırladaq ki, dövri mətbuatda "Bank Respublika" ASC-nin Elman müəllimə bağlılığı ilə bağlı mütəmadi məlumatlar yayılıb. bankın ölkənin baş bankirinə qeyri-rəsmi bağlılığında israr edir. Bundan başqa, hətta 2015-ci ildəki iki devalvasiyadan az sonra belə ölkədəki əksər bankların vəziyyətinin qeyri-qənaətbəxş olduğu bir vaxtda, "Bank Respublika"nın, demək olar, bütün göstəricilər üzrə gözqamaşdırıcı nəticələr əldə etməsinin sirri də məhz bununla əsaslandırılırdı.

E.Rüstəmov baş bankirlikdən uzaqlaşdırıldıqdan sonra iddialar bu yöndə idi ki, onun digər biznes obyektlərinə toxunulmasa da, "Bank Respublika" ilə bağlantılarının qoparılması mümkündür. Belə ki, AMB-nin keçmiş rəhbərinin bank sektorunda öz nüfuzunu və ya təsir imkanlarını ləyən başqa bir fakt isə depozitlərin artmasıdır. "Bank Respublika"nın depozit portfeli 2022-ci ilin 9 ayında ötən ilin sonu ilə müqayisədə nə az, nə çox, düz 141 milyon 697 min manat və ya 17,7% artaraq 943 milyon 262 min manata çatıb. O cümlədən, fiziki şəxslərin depozitləri 103 milyon 191 min manat artaraq 511 milyon 602 min manata, hüquqi şəxslərin depozitləri isə 38 milyon 506 min manat artaraq 431 miylon 660 min manata yüksəlib.

Bir sözlə, Rüstəmov kifayət qədər yüksək vəzifəni əldən versə də, onun bankı Azərbaycanın 5-ci ən böyük bankı statusunu qorumaqdadır.




2017-ci ildə isə bankın rəsmi sahibi olan Natiq Quliyev (hazırda Müşahidə Şurasının üzvüdür) KİV-ə bildirib ki, Elman Rüstəmovla uzun illərdir peşəkar münasibətləri mövcuddur: "Məni sevindirir ki, Bank Respublika o qədər cəlbedicidir ki, onun adını belə tanınmış şəxslərlə əlaqələdirirlər. Elman Rüstəmov mənim çox hörmət etdiyim şəxs və peşəkar dövlət xadimlərindən biridir. Elman müəllimlə, hər bir bank səhmdarı kimi, uzun illər ərzində çox səmimi peşəkar münasibətlərimiz yaranıb. Lakin, Bank Respublikanın sahibi kimi, bir daha qeyd etmək istərdim ki, bank yalnız rəsmi hesabatlarda qeyd olunan səhmdarlara məxsusdur. Bu hesabatlardan göründüyü kimi, mənim əsas tərəfdaşlarım Almaniyanın iki tanınmış maliyyə institutlarıdır. Bunlardan biri, KfW (Almaniyanın Dövlət Bankı) bank qrupunun üzvü DEG İnvestisiya Şirkəti, digəri isə Sparkassen-Finanzgruppe maliyyə qrupunun üzvü Sparkassen International Development Trust".

Bununla belə, yerli KİV adıçəkilən hər hansı formada qoruyub saxlamasının arzu edilmədiyi vurğulanırdı.

Lakin həmin iddialar indiyədək təsdiqini tapmayıb və bank sektoruna yaxın mənbələr "Bank Respublika"nın hələ də Elman müəllimin nəzarətində olduğunu vurğulayırlar.

Digər tərəfdən, ən maraqlı məqamlardan biri isə keçmiş baş bankirin bu postunu itirdikdən sonra adıçəkilən özəl bankın maliyyə göstəricilərinin hansı yöndə dəyişəcəyidir.

Xatırladaq ki, bu il 30-cu ildönümünü qeyd edən "Bank Respublika"nın 2022-ci ilin ilk 9 ayı üzrə maliyyə nəticələri kifayət qədər parlaqdır. Belə ki, sözügedən dövrdə bankın xalis mənfəəti 2022-ci ilin 9 ayında ötən ilin eyni dövrü ilə müqayisədə 7 milyon manata yaxınlaşıb - daha dəqiq desək, 6 milyon 991 min manat və ya 57,8% artaraq 19 milyon 91 min manat təşkil edib. Bank 2021-ci ilin 9 ayında 12 milyon 100 min manat xalis mənfəət əldə etmişdi. Bir sözlə, E.Rüstəmov AMB rəhbərliyindən getsə də onun bankı böyüməyə davam edir. Bunu təsdiq-

Maraq üçün bildirək ki, sabiq baş bankirin şəxsi biznesinə "Səba" ASC, "Biləsuvar Aqro", "Qarabağ Taxıl" şirkətlərinin, eləcədə "Gündəlik" ərzaq dükanları şəbəkəsinin daxil olduğu "Səba" Şirkətlər Qrupu, Yaponiyanın məşhur "Mitsubishi", "Subaru" avtomobillərinin Azərbaycana idxalı və satışını təşkil edən şirkətlər daxildir. AMB-nin keçmiş rəhbərinin bir neçə tikinti şirkətində payının, "Planet" restoranı da daxil olmaqla şadlıq saraylarının, habelə Türkiyə və Gürcüstanın daşınmaz əmlak sektorunda yatırımlarının olduğu da deyilir.

E.Rüstəmovun Londonda yaşayan qızı Günel Rüstəmova isə orada "Gyunel Limited" adlı şirkət açıb və həmin şirkətin direktorudur. Bu ilin mayında Böyük Britaniyanın müvafiq qurumlarına istinadən məlum olub ki, sabiq baş bankirin qızına məxsus olan həmin şirkətin borcu son bir ildə 537 min funt-sterlinq də artaraq 6,84 milyon funt-sterlinqə (14,4 milyon manat) yüksəlib.

***Sənan Mirzə***



**Zaur Əhməd**

# Sözü bazara çıxaranlar...

***Azərbaycan Yazıçılar Birliyinin (AYB) qurultayı baş tutdu. Anar müəllim yenidən AYB sədri seçilib. Qurultayların səs-küylü, yaddaqalan olması normal haldır. Amma məsələ ondadır ki, bizdə qurultayın mahiyyətindən çox ətrafında baş verən ara söhbətləri, qalmaqallarla yaddaşlara həkk olunur.***

Deyilənə görə, qurultaya 200 mindən çox pul xərclənib. Bir günə 200 min manat həqiqətən də diqqətçəkən məqamdır. Bu səbəbdən də gənc jurnalist də AYB-nin "maliyyə bossu" olan Çingiz Abdullayevdən pulların hara xərcləndiyini soruşub. O da hirslənib belə cavab verib: "Utanmırsınız, Xalq yazıçısından pulların hara xərcləndiyini soruşmağa?"g

Doğrudan da, Xalq yazıçısından pulları hara xərclədiyini soruşmaq ayıbdır. Xalqın pulunu elə xalq yazıçısı yeməlidir də, burda nə var ki? Xalqın malını da yeyərlər, pulunu da göyə sovurarlar. Bir günə 200 min nədir ki?

Çingiz müəllim kimi intiligent adama belə sual vermək yersizdir. Axı o, illərdir xalqın yanında olub. Çingiz müəllim həmişə hökumətin xalqazidd qərarlarının qarşısında dayanıb. Hər zaman xalqın sözünü deyib. Xalqa, haqq sözü dediyinə görə təzyiqlərə, təqiblərə, məhrumiyyətlərə məruz qalıb. Bir qarın ac, bir qarın tox yaşayıb. Ona xalqın pulunu hara xərcləmisən sualını vermək ayıbdır. Nə ayıb eee, günahdır, günahg

Günaha batmayın, dağ boyda kişini, ziyalını, yazıçını, bizi, milli dilimizin incəliklərini dünyaya tanıtdıran adamı əsassız yerə ittiham etməying

Əslində, məsələ bir gün müzakirə olunub bitəcəkdi. AYB sədrinin müavini, Mətbuat Şurasının sədri, dostumuz və həmkarımız Rəşad Məcidin jurnalisti ittiham edən, oğlu, bəlkə də nəvəsi yaşında bir gənc jurnalistə "utanıb ölməyi" arzu edən Çngiz Abdullayevə qahmar çıxması vəziyyəti dəyişdi. Müzakirə fərqli boyuta keçdi.

Öncə onu deyim ki, mən jurnalistin sualı daha məntiqli verməsinin tərəfdarıyam. Amma bir məsələ var ki, sualı soruşan sıravi jurnalistdir. Ona bu şəkildə ağır cavab verən isə Xalq yazıçısıdır. Azərbaycan dilinin, sözünün keşiyində duran bir adamın gənc jurnaliste bu qədər aqressiya ilə cavab verməsi qəbuledilməzdir.

Təəssüflə qeyd edim ki, bu gün ölkəmizdə jurnalistikaya, jurnalistə olan hörmət çox aşağı səviyyədədir. Bunun müxtəlif səbəbləri var, əsas səbəblərdən biri də odur ki, jurnalistlərin dostu olmalı, onları qorumalı olan Mətbuat Şurası əksərən məsələnin mahiyyətinə varmadan jurnalisti ittiham edir, günahkar çıxarmağa çalışır. Elə buna görə də Azərbaycanda jurnalist başqa peşə adamları ilə müqayisədə zəif bəndə çevrilib. Kimi dindirirsən, həmin məsələdə çalışır ki, jurnalisti günahkar çıxarsın. Bax, beləcə jurnalistika gözüqıpıq, boynubükük edilib.

Əslində, mən Rəşad müəllimdən belə reaksiya gözləmirdim. Çünki bütün hallarda daha yaxşı ifadə seçmək olardı. Söz adamı kimi onun buna istedadı da imkan verirdi, amma etmədi... Hesab edirəm ki, Mətbuat Şurası hər şeydən öncə jurnalistin yanında olmalıdır. Görünən odur ki, hələlik heç nə dəyişməyib. Hər kəs öz marağına uyğun davranır. Hər kəsin öz "kruq"u var və hərə öz əhatəsinin maraqlarını qoruyur. Nə yazıq ki, haqq, ədalət, söz, mətbuat şəxsi maraqlara qurban verilir. Qələm adamlarının da bu maraq bazarına qoşulması adamı çox incidir.

# Səbuhi Əhmədovun qardaşına qarşı dələduzluq edildi



***Uşaq evində böyüyən şəhid Səbuhi Əhmədovun qardaşı Sənan Əhmədova qarşı dələduzluq edilib.***

Bununla bağlı Sənan Əhmədov "Unikal"a açıqlama verib: "Bu gün səhər mənə zəng gəldi ki, bir nəfər var, bloqer Hüseyn Həsənovun adından bizə yardım etmək istəyirlər. Nömrəmi vermək üçün icazə istədilər. Mən də dedim ki, problem yoxdur, nömrəmi verin. Daha sonra həmin adam mənə zəng etdi. Kartla bağlı bəzi məlumatları soruşdu. Mən də onun soruşduqlarını dedim. Daha sonra isə kartımdan pul çəkildiyini gördüm. Bankla əlaqə saxlasam da, bildirdilər ki, sizi aldadıblar.

Sadəcə əsas məsələ odur ki, ehtiyac üzündən insan belə vədlərə inanmağa məcbur qalır. Kartdan dəqiq nə qədər məbləğdə pul çəkildiyini bilmirəm. Pul xarici valyuta ilə çıxarılıb", - deyə o bildirib.

*Murad İbrahimli*

# "Mikrofonu müsahibinin ağzına dürtən "jurnalistlər"in..." - Rəşad Məcid

***"Yazıçılar Birliyinin qurultayında bəzi "jurnalistlərin" hərəkətlərini görəndən sonra bir daha əmin oldum ki, mətbuatımızın saflaşmasına ciddi ehtiyac var".***

"Unikal" xəbər verir ki, bunu Mətbuat Şurasının sədri Rəşad Məcid sosial şəbəkə hesabında yazıb.

O bildirib ki, heç bir ədəb-ərkan gözləmədən, bütün etik qaydaları tapdalayaraq yaşlı yazıçılarla, alimlərlə kobud davranan, mikrofonu müsahibinin ağzına dürtən, əndazə gözləmədən, qarışıqlıqdan və tünlükdən faydalanıb, müsahibini hövsələdən çıxarıb zorla istədiyi cavabı qoparmağa çalışan, qalmaqal təşnəsi bu "jurnalistlər"in hərəkətinə heyrətlənməmək mümkünsüz idi.

"Bəzi özünü media adlandıran , "gözəgörünməz" sayt idarəçilərinin "sensasiya" yaratmaq naminə gəncləri əllərində oyuncağa - robota çevirməsini müşahidə eləmək də məyusluq doğururdu. Amma orda kübar, özünü-sözünü bilən, müsahibə almaq üçün icazə istəyən , sərt sualları da mədəni şəkildə ünvanlayan peşəkarlar da vardı. Jurnalistikamız belə peşəkarlara söykənib inkişaf edə bilər. "Babam mənə kor deyib, gəlib gedəni vur deyib" əxlaqını peşə prinsipi kimi qəbul edənlərlə yalnız xaosa yuvarlanmaq olar. İctimaiyyətin qınağı , peşəkar jurnalistlərin dəstəyi və "Media haqqında" qanunun tələbləri ilə bu qarışıqlığa son qoyulmasının mümkün olacağına inanıram".

# Komitədən işdən çıxarıldığı deyilən generalla bağlı açıqlama

***Dövlət Gömrük Komitəsinin (DGK) gömrük xidməti general-mayoru Qasımov Cavad Mustafa oğlunun sədr müavini vəzifəsindən azad olunması xəbəri ilə bağlı komitə rəsmi məlumat yayıb.***

"Unikal"ın məlumatına görə, DGK-nın Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən sözügedən məlumatın həqiqəti əks etdirmədiyi bildirilib.

Belə ki, gömrük xidməti general-mayoru Cavad Qasımov hazırda işinin başındadır.

# Astarada "Qırmızı Kitab"a düşən ağaclar kəsilib

***Dövlət Ekoloji Təhlükəsizlik Xidmətinin əməkdaşları tərəfindən keçirilən nəzarət tədbirləri zamanı Astara rayonu, Səlivə kəndi ərazisində Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına düşən Azat ağaclarının kəsildiyi və zədələndiyi müəyyən edilib.***

"Unikal" xəbər verir ki, Xidmət rəsmisi Bəhruz Məhəmmədov bildirib ki, araşdırma zamanı ağacların vətəndaş Hidayət Məlikzadə tərəfindən qanunsuz kəsildiyi və zədələndiyi, təbiətə 102200 manat məbləğində ziyan dəydiyi məlum olub.

Faktla bağlı akt tərtib olunub və yaşıllıqlara dəymiş ziyanın məbləği cinayət tərkibi yaratdığından məsələyə hüquqi qiymət verilməsi üçün toplanmış sənədlər Azərbaycan Respublikasının Baş Prokurorluğuna göndərilib.

# Fazil Məmmədova məxsus şirkətin anti-rekordu...

## "AtaSığorta" ASC müştəri şikayətlərinin sayına görə lider oldu

***Bu günlərdə məlum oldu ki, avto-icbari sığorta sahəsində istehlakçıların məlumatlığının və sığortaçıların istehlakçılara münasibətdə ədalətli davranışının yüksəldilməsi məqsədilə bu sahədə Mərkəzi Banka daxil olan şikayətlər üzrə hesablanan "şikayət indeksi"nin ictimaiyyətə açıqlanmasına qərar verilib.***

O da bildirilib ki, indeksin aylıq əsasda yayımlanması nəzərdə tutulub. Şikayət indeksi açıqlandığı tarixdən son 12 ay ərzində əldə edilmiş məlumatlar əsasında hər bir sığortaçı üzrə hesablanacaq və aylıq məlumatlar əsasında yenilənəcək.



İndeksin 1.00-dən aşağı olması həmin portfel üzrə xidmət səviyyəsinin digər şirkətlərlə nisbətdə yaxşı olduğunu, lakin 1.00-i üstələməsi xidmət səviyyəsinin digər şirkətlərə nəzərən aşağı olduğunu göstərəcək.

Artıq ilk indeks açıqlanıb və həmin indeksə əsasən, xidmət səviyyəsi ən aşağı şirkət "AtaSığorta" ASC olub. Belə ki, 14 sığorta şirkətinin yer aldığı siyahıda bu ASC 5,08-lik şikayət indeksi ilə "birinciliyə yüksəlib". Sözügedən göstərici ilə sabiq vergilər naziri Fazil Məmmədova məxsus olan şirkət ən yaxın izləyicisini - 2-ci yerdəki "Günay Sığorta"nı təxminən 1,5 dəfə "üstələyib". Bir sözlə, anti-rekorda imza atıb.

Xatırladaq ki, yerli mətbuatda və sosial şəbəkələrdə də haqqında ən çox giley-güzar edilən sığorta şirkətlərindən biri təsirini bağışlayır. Bunu internet üzərindən kiçik axtarış aparmaqla da aydın görmək olar. Son zamanlar "AtaSığorta"da mütəmadi rəhbər dəyişikliklərinin baş verməsi də maraq doğurur. Axırıncı dəfə bu ilin sentyabrında adıçəkilən ASC-nin İdarə Heyətinin sədri Orxan Məmmədov şirkətdən ayrılmışdı. Bildirilirdi ki, o, öz ərizəsi ilə işdən çıxıb. Orxan Məmmədov həmin vəzifəyə cəmi 3 il öncə gətirilmişdi.

Bundan başqa, Azərbaycanda fəaliyyət göstərən 20 sığorta şirkətindən cəmi 4-ü ötən ili zərərlə başa vurmuşdu. Onlardan biri də məhz "AtaSığorta" ASC idi. Belə ki, rəqəmlər şirkətin gəlirlərinin xərclərini ödəmədiyini ortaya qoymuşdu. Daha dəqiq desək, bu ASC 2021-ci ili düz 2 milyon 265 min manat xalis zərər ilə başa vurmuşdu. Şirkətin maliyyə hesabatlarından belə aydın olurdu ki, 2021-ci ildə "AtaSığorta"nın cəmi əməliyyat gəlirləri 15 milyon 752 min manat, cəmi əməliyyat xərcləri 18 milyon 17 min manat təşkil edib!

Üstəlik, 2020-ci ildə "Ata Sığorta"nın hesabladığı sığorta haqları 13 milyon 896 min manat ikən, 2021-ci ildə 11 milyon 952 min manata geriləyib. Şirkət 2019-cu ildə 18 milyon 48 min manat sığorta haqları hesablamışdı. "AtaSığorta" Açıq Səhmdar Cəmiyyətinin hesabladığı sığorta haqlarının azalması 2022-ci ildə də davam edib. Belə ki, şirkət 2022-ci ilin yanvar-fevral dövründə 1 milyon 307 min manat sığorta haqları hesablayıb. Halbuki, "AtaSığorta" 2021-ci ilin eyni dövründə 2 milyon 492 min manat sığorta haqları hesablamışdı. Üstəlik, bu ilin ilk 4 ayında da "AtaSığorta"nın yığımları 2021-ci ilin müvafiq dövrü ilə müqayisədə 60 faizdən çox azalıb.

Bir sözlə, hansı pəncərədən baxsaq, adıçəkilən şirkət üçün işlərin qaydasında getdiyini söyləmək mümkün deyil. Ona görə indi "AtaSığorta"nın şikayət indeksi üzrə də ən pis nəticə göstərməsində təəccüblü heç nə yoxdur.

Xatırladaq ki, Fazil Məmmədova məxsus şirkət 2004-cü il iyul ayının 21-də rəsmi dövlət qeydiyyatından keçib. Şirkətin səhmdarı "Ata Holding" MMC-dir. Bu holding isə sabiq vergilər nazirinin nəzarətindədir.

Maraq üçün onu da qeyd edək ki, ötən ay yayılan məlumata görə, İqtisadiyyat Nazirliyi Yanında Dövlət Vergi Xidməti Bakı Şəhəri Lokal Gəlirlər Baş İdarəsi iş adamı Kamilov Əşrəf Kamil oğluna qarşı məhkəmə iddiası qaldırıb. Məhkəmə iddiası vergi ödəyicisinin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması ilə bağlı olub.

Əşrəf Kamilov məhz "Ata Holding" MMC-nin Müşahidə Şurasının sədr müavini və qanuni təmsilçisidir.

Hazırda nizamnamə kapitalı 40 milyon manatdan çox olan və F.Məmmədova bağlılığı barədə çoxdan yazılan holdinqin dövlət büdcəsinə 1 milyon 15 min 68 manat 92 qəpik vergi borcunun yarandığı deyilir.

***Murad***

**6.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi;**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Ölkəmiz dünyada tolerantlığın ünvanına çevrilib

## Deputat Aqil Abbas: "Ermənilər narahat olmasın, biz Allahın evini heç vaxt dağıtmarıq"



***Tolerantlıq dedikdə Azərbaycanın adının yada düşməsi heç də təsadüfi deyil. Ölkəmiz artıq dünya miqyasında tolerantlığın ünvanı kimi tanınıb. Azərbaycanın multikulturalizm modeli dünyaya nümunədir. Yüzilliklər boyu ölkəmizdə məskunlaşan müxtəlif mədəniyyətlərə və dini etiqadlara mənsub xalqlara dözümlülük nümayiş etdirən Azərbaycan bu tolerantlığını bu gün də qoruyub saxlayır.***

Hətta düşməni olsa belə, ermənilərə məxsus kilsəni paytaxt Bakıda qoruyub saxlayan dövlətimiz bununla dünyaya tolerantlıq nümunəsi göstərmiş oldu. Ermənistan isə 30 illik işğal dövründə Azərbaycanın tarixi, dini, mədəni abidələrini yerlə-yeksan etməklə öz vandallığını bir daha təsdiqləmiş oldu. İndi isə düşmən kilsələrin Azərbaycan tərəfindən dağıdıldığına dair çirkin oyuna başlayıb. Azərbaycana qarşı yalan üstündə qurulmuş bu təbliğatla Ermənilər ölkəmizin işğaldan azad edilmiş torpaqlarımızda kilsələri dağıtdığını, kilsələrin məscidlərə, alban-udin kilsələrinə çevrilməsi barədə dünyaya car çəkirlər.

Millət vəkili Aqil Abbas "Unikal"a açıqlamasında bildirib ki, Azərbaycan ermənilərin bu yalanlarını ifşa etmək üçün daim çalışır. Çox təəssüf ki, bəzi beynəlxalq təşkilatlar reallığı yox, erməni yalanlarını dinləyirlər: "Azərbaycan dövləti, Azərbaycan jurnalistləri bununla bağlı beynəlxalq aləmi məlumatlandırır, ermənilərin kilsələrin dağıdılması ilə bağlı yalanlarını ifşa edirlər. Amma təəssüf ki, bizim yazdıqlarımızı yox, ermənilərin yalanlarına inanırlar".

A.Abbas deyir ki, işğaldan azad edilmiş torpaqlar kimin vandal olduğunu təsdiqləyir. Bunun üçün əlavə şərhə ehtiyac yoxdur.

Millət vəkili Azərbaycan xalqının daim tolerant olduğunu, bütün dinlərə, azsaylı xalqlara qarşı dözümlə yanaşdığını söyləyib: "Təəssüf ki, tolerantlığımız başımıza bəla olub. Elə buna görə mən hərdən deyirəm gərək tolerant olmazdıq. Amma bu mənim, yaxud da digərinin istəyi ilə olan məsələ deyil. Bu babalarımızın bizə miras qoyduğu tərbiyədir. Biz ata-babalarımızdan necə görüb-götürmüşüksə adət-ənənələrimizi elə də yaşadırıq. Başqa millətə, onun dəyərlərinə heç vaxt hörmətsiz yanaşmırıq. Eləcə də ermənilərin kilsələrinə qarşı. Düşmən olsa da biz onların tarixini, abidələrini məhv etməmişik. Allahın evini isə heç etməmişik. Kilsə Allahın evidir. Biz Azərbaycan xalqı isə Allah adamıyıq. Allah adamı heç vaxt Allahın evini dağıtmaz. Ermənilər özləri də yaxşı bilir ki, biz Allahın evinə qarşı hörmətsiz davranmarıq. Oranın hansı dinin, mədəniyyətin daşıyıcısına, millətə məxsus olmasından asılı olmayaraq. Bunu dünya da belə qəbul etməlidir. Ermənilər çox da ki, yalandan bəyanatlar verirlər. Məgər beynəlxalq təşkilatlar ölkəmizdəki tolerantlıq mühitini görmürlər? Onlar yaxşı görürlər ki, ölkəmizdə nə qədər azsaylı xalq sülh, mehriban şəraitdə yaşayır. Artıq biz doğmalaşmışıq. Ölkəmizdə yaşayan azsaylı xalqlar özlərinə qarşı heç bir ayrı seçkilik görmürlər. Onlar bu torpağı özlərinə Vətən sayırlar. 44 günlük müharibədə ölkəmizdə yaşayan azsaylı xalqlar torpaqlarımızın bütövlüyü uğrunda birgə döyüşdülər. Dünya bundan örnək götürməlidir. Biz bütün dini konfensiyalara hörmətlə yanaşırıq. Azərbaycan dövləti kilsələrin qorunması üçün dövlət büdcəsindən vəsait ayırır. Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığı ilə Heydər Əliyev Fondu ölkəmizdəki kilsələrin təmirinə dəstək göstərir. Ona görə də ermənilərin bu təşvişləri yersizdir".

Xatırladaq ki, 2011-2012-ci illərdə Heydər Əliyev Fondu Fransanın müxtəlif regionlarındakı 20-dək kilsənin bərpasına maliyyə yardımı ayırıb. 2013-cü ildə Rusiya Federasiyasının Həştərxan şəhərində, "Müqəddəs Vladimir" kilsəsinin qarşısındakı meydanda Knyaz Vladimirin abidəsi ucaldılıb. 2013-cü il avqustun 3-də dövlətin dəstəyi ilə Alban-udi kilsəsinin dirçəlişinin 10 illiyi və Qafqaz Albaniyasında xristianlığın rəsmi din kimi qəbul edilməsinin 1700 illiyinə həsr olunmuş bayram mərasimi keçirilib.

Azərbaycan hökumətinin dəstəyi ilə Şəki rayonunun Kiş kəndində yerləşən və Qafqazda "kilsələrin anası" hesab olunan apostol Yelisey məbədi bərpa edilib, 2006-cı ildə isə udilərin kompakt halda yaşadığı Qəbələ rayonunun Nic qəsəbəsindəki "Çotari" Alban-udi kilsəsinin inşası başa çatdırılıb. 2020-ci ildə Nic qəsəbəsində Heydər Əliyev Fondu tərəfindən daha bir tarixi kilsə - Müqəddəs Məryəm Ana kilsəsi əsaslı şəkildə bərpa edilib. 2020-ci ildən Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Şamaxıdakı "Pirsaat Baba" ziyarətgah-məscid kompleksinin bərpa və yenidənqurma işləri aparılıb, 2021-ci il noyabrın 1-də ziyarətgah-məscid kompleksinin açılışı olub. Respublikada 16 kilsə və 7 sinaqoq fəaliyyət göstərir. Ölkədə ümumilikdə 748 pir və ziyarətgah müəyyən edilib. İşğaldan azad olunmuş ərazilərimizdə indiyədək təsbit olunan tarixi-dini abidələrdən 67-si məscid, 139-u məbəd, 192-si ziyarətgahdır. İşğaldan azad olunmuş ərazilərimizdəki 67 məsciddən (Şuşada 13, Ağdamda 5, Füzulidə 16, Zəngilanda 12, Cəbrayılda 5, Qubadlıda 8, Laçında 63-ü tamamilə, 4-ü isə qismən dağıdılaraq yararsız hala salınıb.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Ermənistan rəhbərliyi hələ də məsuliyyətə cəlb edilməyib - Ombudsman

***"Çoxsaylı müharibə cinayətləri törətmiş Ermənistanın hərbi-siyasi rəhbərliyi hələ də beynəlxalq hüquqi məsuliyyətə cəlb edilməyib".***

"Unikal"ın xəbərinə görə, bu barədə Azərbaycan Ombudsman Aparatının yaydığı açıqlamada bildirilib.

"Bu gün Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələrinin humanitar atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycanın mülki əhalinin sıx məskunlaşdığı Bərdə rayonunu qadağan olunmuş silahlardan istifadə etməklə atəşə tutmasından 2 il ötür.

Döyüş əməliyyatlarının aparıldığı ərazidən uzaq məsafədə yerləşən Bərdə rayonuna 2020-ci ilin 27-28 oktyabr tarixlərində edilmiş raket hücumları nəticəsində 29 nəfər həlak olub, 112 nəfər yaralanıb, rayonda yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Bununla əlaqədar mülki əhali arasında baş vermiş çoxsaylı tələfat, yaralanma və infrastruktur obyektlərinin dağıntılara məruz qalması faktlarına dair tərəfimizdən faktaraşdırıcı missiya həyata keçirilib və müvafiq hesabat hazırlanaraq beynəlxalq təşkilatlara təqdim edilmişdir. Lakin təəssüflər olsun ki, beynəlxalq humanitar hüquq normalarının tələblərini kobud şəkildə pozmaqla çoxsaylı müharibə cinayətləri törətmiş Ermənistanın hərbi-siyasi rəhbərliyi hələ də beynəlxalq hüquqi məsuliyyətə cəlb edilməyib", - açıqlamada qeyd edilib.

## "Sərhədlərin delimitasiyası ilin sonunadək yekunlaşa bilməz" - Komissiya sədri

***Sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlı işlər ilin sonuna qədər yekunlaşa bilməz.***

Bunu Ermənistan parlamentinin "Mülki müqavilə" fraksiyasının üzvü, müdafiə və təhlükəsizlik daimi komissiyasının rəhbəri Andranik Köçəryan bildirib.

"Müvəqqəti məhdudiyyətlər sərhədin delimitasiyası və demarkasiyasına maneəyə çevrilməməlidir. Əgər biz məhdudiyyətlər qoysaq, bu, bizi heç bir yerə aparmayacaq", - Köçəryan deyib.

Onun sözlərinə görə, proses zamanı masanın üzərində elə bir sənədin olması vacibdir ki, onun çərçivəsində işləmək mümkünləşsin.

İlin sonunadək Bakı ilə sülh müqaviləsinin imzalanmasının mümkünlüyünə gəlincə, deputatın qeyd etdiyi kimi, İrəvan bunda çox maraqlıdır. O əlavə edib ki, delimitasiya və demarkasiya problemləri həm də müqavilənin bağlanması məsələsi ilə bağlıdır, lakin onları eyni vaxtda həll etmək lazım deyil: bunlar iki sənəd, iki əlaqə gəmisidir.

Xatırladaq ki, oktyabrın 26-da Ermənistanın baş naziri Nikol Paşinyan Ermənistan parlamentində ilin sonuna qədər Azərbaycanla sülh müqaviləsi imzalamaq niyyətində olduğunu bəyan edib. O əlavə edib ki, İrəvan sənədi imzalamazdan əvvəl sərhədin delimitasiyası üzrə işləri başa çatdırmağa ümid edir.



# Göyçayın sabiq icra nümayəndəsi 800 min manat rüşvət alıb

***Göyçay Rayon İcra Hakimiyyəti (RİH) başçısının şəhər inzibati ərazi dairəsi üzrə sabiq nümayəndəsi Rəşad Şükürovun cinayət işi üzrə məhkəmə istintaqı başlayıb.***

"Unikal" Apa-ya istinadən xəbər verir ki, Şəki Ağır Cinayətlər Məhkəməsində hakim Nahid Mirzəyevin sədrliyi ilə keçirilən iclasda ittiham aktı elan olunub.

İttihamda göstərilib ki, Göyçay Rayon İcra Hakimiyyəti başçısının Göyçay şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəsi vəzifəsində işləmiş Rəşad Şükürov İcra Hakimiyyətinin Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsində işləyərkən rəhbərlik etdiyi struktur qurumun digər vəzifəli şəxsləri ilə əlbir olaraq vəzifə səlahiyyətlərindən sui-istifadə edib.

O, ayrı-ayrı vəzifəli şəxslərdən xidməti vəzifələrinin icrasına davam etmələri üçün rüşvət verməyəcəkləri təqdirdə işdən çıxarılacaqları ilə bağlı hədə-qorxu gələrək öz xidməti otağında onlardan müxtəlif məbləğlərdə rüşvət alıb.

Cinayət əməli üzrə dəymiş ziyanın 800 min manat olduğu müəyyən edilib.

Təqsirləndirilən şəxs ittiham üzrə özünü təqsirli bilməyib. O, məhkəmə gedişində müxtəlif epizodlar üzrə ifadə verəcəyini deyib.

Qeyd edək ki, Rəşad Şükürov Cinayət Məcəlləsinin 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda), 311.3.1 (rüşvət alma qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) və 311.3.4 (rüşvət alma hədə-qorxu tətbiq olunmaqla törədildikdə) maddələri ilə ittiham elan edilməklə məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

O, sonradan ev dustaqlığına buraxılıb.

# AYB-də qurultaya görə ilk istefa



***Tanınmış tənqidçi Mehman Qaraxanoğlu Azərbaycan Yazıçılar Birliyinə üzvlükdən imtina edib.***

"Unikal" xəbər verir ki, bu barədə tənqidçi öz feysbuk səhifəsində yazıb.

"Azərbaycan Yazıçılar Birliyinin XIII qurultayında rəzilliklər, ləçərliklər, simasızlıqlar, avtoritar oyunbazlıqlar, planlaşdırılmış maskaradlar, ədəbi diktatura yaratmaq cəhdləri, demokratik fikirli istedadlara qarşı gizli sövdələşmələr proletar təfəkkürünə amansız qayıdışı və milli-tarixi yaddaşın qəddarlıqla qapadılmasını səciyyələndirən əsas cəhədlər idi.

Yazıçı şərəfinin necə əzabla can verdiyini görmək dəhşətdir... Bütün bunlara etiraz olaraq qurumun üzvlüyündən imtina edirəm", - deyə Qaraxanoğlu qeyd edib.

# "Yanvarın 1-dən yeni yanaşma tətbiq olunacaq" - AQTA sədri

***"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunu qida təhlükəsizliyi sistemi üzrə bir çox yeniliklərin hüquqi bazasını formalaşdırmaqla yanaşı, sahibkarlara dövlət dəstəyi siyasəti çərçivəsində bəzi inzibati prosedurların sadələşdirilməsini də nəzərdə tutur.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) sədri Qoşqar Təhməzli mətbuat konfransında məlumat verib. Bildirib ki, aşağı riskli məhsullara aid qida obyektlərinin qeydiyyatı avtomatik, yüksək riskli məhsullara aid obyektlərin təsdiqi isə tələblərə uyğunluğu qiymətləndirməklə həyata keçiriləcək. Obyektlərin və subyektlərin qeydiyyatı dövlət rüsumu tələb olunmadan, təsdiqi isə mikro və kiçik sahibkarlıq subyektləri üçün rüsumsuz, orta və iri subyektlər üçün isə vahid məbləğ olmaqla ödəniləcək.

Qanuna əsasən, növbəti ildən etibarən qida obyektlərinin qeydiyyatı və fəaliyyətinə icazə verilməsinə dair yeni yanaşmanın tətbiqi nəzərdə tutulub. Belə ki, təsdiqi tələb olunmayan qida obyektlərinin qeydiyyatı AQTA tərəfindən 7 iş günü ərzində obyektin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilmədən aparılacaq. Həmçinin stasionar, modul və daşınan (nəqliyyat vasitələri, mexaniki qoşqular, avadanlıqlar və digər) qida obyektləri ilə yanaşı, qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektləri, habelə obyekti olmadan fəaliyyət göstərən qida subyektlərini əhatə edəcək qeydiyyat prosesi üçün dövlət rüsumu nəzərdə tutulmayıb.



Q.Təhməzli qeyd edib ki, qida təhlükəsizliyi qeydiyyatına və təsdiqinə dair müraciətlərin qəbulu prosesi tamamilə elektronlaşdırılacaq.

Bu ilin 9 ayında Qida Təhlükəsizliyi Agentliyi tərəfindən həyata keçirilən nəzarət tədbirləri nəticəsində 345 müəssisənin fəaliyyəti nöqsanlar aradan qaldırılanadək məhdudlaşdırılıb, 131 müəssisənin tam sağlamlaşdırılması təmin edilib.

O bildirib ki, bu sahədə şəffaflığın artırılması və işin daha səmərəli aparılması üçün bir sıra məqsədyönlü işlər görülüb. Həmçinin qida obyektlərində həyata keçirilən bütün yoxlamalar planşetlərdən və yaxa kameralarından istifadə etməklə həyata keçirilir.

Q.Təhməzli qeyd edib ki, ilin 9 ayında qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarət tədbirləri nəticəsində, ümumilikdə, 115 baş, 1972 ton, 297146 litr və 37 902 ədəd qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarətinə aid məhsulların məhv edilməsi, 20 ton məhsulun utilizasiyası təmin olunub: "Təqdirəlayiq hal odur ki, son illər vaxtı keçmiş məhsulların məhv edilməsi ilə bağlı Agentliyə müraciət edən sahibkarların sayı əhəmiyyətli dərəcədə artıb. Agentlik tərəfindən həmin məhsullar məhv edilərək təkrar dövriyyəyə daxil olunmasının qarşısı alınır".

Qoşqar Təhməzli onu da bildirib ki, bu il Azərbaycanda 272 nəfər qidadan zəhərlənib. O deyib ki, bu il qida zəhərlənməsi ilə bağlı 573 müraciət daxil olub, həmçinin 873 nəfərin zəhərlənməsi haqqında yanlış informasiya verilib.

# Soydaşlarımız AŞPA-nın həmməruzəçilərini obyektiv olmağa çağırıblar

***İsveç və Finlandiyada yaşayan Azərbaycan icmasının üzvləri Avropa Şurası Parlament Assosiasiyasının (AŞPA) Ermənistan üzrə həmməruzəçilərinə - isveçli deputat Boriana Obergrinə və finlandiyalı deputat Kimmo Kilyunenə müraciət ediblər.***

Müraciəti İsveçdə Azərbaycanlı Akademiklər Assosiasiyasının sədri Səadət Kərimi, İsveç-Azərbaycan Mədəniyyət Dərnəyinin (SAF) sədri Sevda Dadaşova və Helsinki Azərbaycan Evinin rəhbəri, "Azər-Türk" Gənclər Təşkilatının sədri, Skadinaviya Azərbaycanlıları Koordinasiya Şurasının Finlandiya üzrə əlaqələndiricisi Ülviyyə Cabbarova imzalayıb.

Müraciətdə bildirilib ki, AŞPA-nın Ermənistan üzrə həmməruzəçilərinin Azərbaycan Silahlı Qüvvələri ilə bağlı qərəzli bəyanatı İsveç və Finlandiya azərbaycanlılarında dərin narahatlıq doğurub. İsveç və Finlandiya azərbaycanlılarının öz deputatlarından faktlara və hadisələrə neytral və obyektiv yanaşma tələb etdiyi nəzərə çatdırılıb.

Qeyd edilib ki, bu günlərdə dünya azərbaycanlıları 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək Ermənistan silahlı qüvvələrinin Azərbaycan şəhərlərinə raket hücumları nəticəsində həlak olanların xatirəsini ehtiramla yad edirlər. "İnsanlığa və sülhə qarşı törədilmiş bu cinayətləri pisləyirik. Bu qanlı cinayətlərin törədilməsinə məsuliyyət daşıyanların indiyədək ədalət məhkəməsi qarşısına çıxarılmamasından dərin təəssüf hissi keçiririk", - deyə vurğulanıb.

Bəyanatda Qarabağ münaqişəsinin tarixi, Ermənistanın 30 illik işğal dövründə törətdiyi dəhşətli müharibə cinayətləri, o cümlədən II Qarabağ müharibəsi dövründə münaqişə zonasından və cəbhə xəttindən onlarla kilometr aralıda yerləşən Azərbaycanın Gəncə, Naftalan, Bərdə, Tərtər, Mingəçevir və digər şəhərlərinin ağır artilleriya, ballistik raketlər, fosforlu və kasetli bombalar vasitəsilə bombardman edildiyi bir daha nəzərə çatdırılıb: "Nəticədə 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olub, 454-ü müxtəlif dərəcəli bədən xəsarətləri alıb, mülki infrastruktura ciddi ziyan dəyib".

Ermənistanın hərbi cinayətlərini beynəlxalq hüququn norma və prinsiplərinin, 1949-cu il Cenevrə Konvensiyalarının və onlara Əlavə Protokolların müddəalarının kobudcasına pozulması kimi qiymətləndirən diaspor təşkilatlarının rəhbərləri bildiriblər ki, dünya azərbaycanlıları AŞPA-ya bəslədikləri ümidi çoxdan itiriblər. Çünki AŞPA-



AZƏR-TÜRK GƏNCLƏR TƏŞKİLATI
AZER-TURKIN NUORISO ORGANISAATIO
ORGANIZATION OF AZER-TURK YOUTH

SKANDİNAVİYA AZƏRBAYCANLILARININ KOORDİNASİYA ŞURASI
FİNLANDİYA

Coordination Council of Scandinavian Azerbaijanis for Finland
Vaaranpiha 2D, Kirkkonummi 02400, Helsinki
scandinavianazerbaijanis@gmail.com

Phone: +358456453262
E-mail:

**Protest to Kimmo Kiljunen**

We, the Azerbaijanis living in Finland, express our deep concern about your biased statements about the Azerbaijani armed forces as co-rapporteurs of PACE on Armenia, and demand a more neutral and objective approach to the facts and events.

We remind you that 2 years ago, the war between Armenia and Azerbaijan started in response to Armenia's next military aggression against Azerbaijan in order to liberate our occupied lands. From that time until now, the steps taken by the Armed Forces of Azerbaijan have been aimed at ensuring the safety of the civilian population within its internationally recognized borders and putting an end to the provocations of Armenia.

During the war and later, Armenia's targeting of the civilian population of Azerbaijan was deliberate and planned contrary to the norms and principles of international humanitarian law. In the second Karabakh war, 93 civilians, including 12 children and 27 women, were killed and 454 civilians were injured as a result of Armenia's military aggression. About 3,000 military servants of the Azerbaijani army were martyred, and more than a thousand of our soldiers were injured and lost their health.

Unlike the occupier Armenia, Azerbaijan is guided by the principles of humanism and human values. The armed forces of Armenia continuously violate the requirements of international law, international humanitarian law norms, including the requirements of the 1949 Geneva Conventions for the Protection of War Victims and openly exposes the war crimes observed by torture and anti-humanity acts against Azerbaijani civilians, military personnel, especially the wounded and dead, and demonstrates its inhumane behavior and genocidal policy. During the First and Second Karabakh wars a large number of videos confirming numerous facts about the brutal killing of Azerbaijani prisoners by shooting them in the head and heart from a close range by Armenian military personnel, looting, dismemberment, torture and humiliation of their bodies are a clear example of what has been mentioned.

The mass graves founded in 2022 in Edilli village of Khojavend region, which Azerbaijan liberated from occupation, are one of these facts. In those cemeteries, the discovery of mass burials of human remains tied with hands and feet by the use of wires and ropes prove many statements about the torture and killing of Azerbaijani prisoners of war.

Thus, as co-rapporteurs of an institution like PACE, your biased statements without knowing the facts and events correctly, covering up the war crimes of Armenia and accuse the state of Azerbaijan because of the measures taken to prevent the provocation of the armed forces of Armenia within its internationally recognized borders

is a c
attitud
The
fields
contr
puttin
menti
We
chose
lies a
in Az
appro
occup
treaty

Best

The c

14.10

da bu dəhşətli hadisələrə adekvat reaksiya vermək əvəzinə, müxtəlif dövrlərdə siyasi sifarişlərin yerinə yetirilməsi üçün dəfələrlə Azərbaycan hədəf seçilir, "...ölkəmiz haqqında yalanlar uydurulur və yayılır. Azərbaycanda gedən müsbət proseslər isə təəssüf ki, qeydə alınmır".

Müraciət müəllifləri AŞPA-nı daha obyektiv və neytral yanaşma nümayiş etdirməyə, işğalçı Ermənistandan Azərbaycana qarşı törətdiyi hərbi cinayətlərə görə cavab tələb etməyə və Azərbaycanla sülh müqaviləsi imzalaması üçün rəsmi İrəvana təzyiqlər göstərməyə çağırıb.

# Bölgələrdə kanallar və kollektorlar lildən təmizlənir

***Kürdəmir melioservis idarəsi kanallarda işlərə başlayıb. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin nümayəndəsi Dilqəm Şərifov bildirib ki, 1974-cü ildən fəaliyyətə başlayan Kürdəmir Melioservis İdarəsi ölkənin bir-neçə rayonunda yerləşən təsərrüfatlararası, təsərrüfatdaxili suvarma və kollektor drenaj sistemlərinin, hidrotexniki qurğuların təmiri, bərpası və yenidən qurulması, nov və beton kanallarda əsaslı təmir işlərini həyata keçirir.***

Hazırda idarə tərəfindən suvarma suyunun maneəsiz olaraq fermerlərə çatdırılması üçün Zərdab rayonunda torpaq məcralı kanallar lildən və kol-kosdan təmizlənir. Bundan başqa Ucar rayonunda yerləşən kollektor-drenaj şəbəkəsində, o cümlədən Göyçay rayonunda da işlər paralel olaraq davam edir. Görülən işlər nəticəsində həmin ərazilərdə şoranlaşmanın qarşısı alınır və torpaqlar münbitləşir. Görülən işlər meliorativ cəhətdən səmərəli olmaqla yanaşı kənd təsərrüfatında məhsul bolluğuan gətirib çıxarır.



Qeyd edək ki, Kürdəmir Melioservis İdarəsi respublikanın Kürdəmir, Sabirabad, Göyçay, Ucar və Zərdab rayonlarında meliorasiya işlərini həyata keçirir. Görülən işlər nəticəsində fermerlərin suvarma suyundan itkisiz istifadəsi və suyun təsərrüfatlara operativ və maneəsiz çatdırılması təmin edilir.

Samuxda yeni beton kanal çəkilir. Dilqəm Şərifov bildirib ki, Samux Suvarma Sistemləri İdarəsi, rayonun 28266 hektar suvarılan torpaqlarına xidmət edir. İdarənin balansında 574 ədəd subartezian quyusu, 26 ədəd isə nasos stansiyaları mövcuddur. Əkin sahələrinin suvarılması üçün uzunluğu 726 km-dən uzun olan təsərrüfatdaxili və təsərrüfatarası kanallardan istifadə olunur. Bundan 65 km təsərrüfatlararası, 658 km təsərrüfatdaxili kanallardır. Balansda 3 km suötürücü kanal, 63 ədəd hidrotexniki qurğu, 39 ədəd körpükeçid, 61 ədəd suölçən qurğu, 14,5 km drenaj kanalları var. Su itkisinin qarşısının alınması, suvarma suyunu daha səmərəli olaraq fermerlərə çatdırılması üçün rayon ərazisində yerləşən torpaq məcralı kanalın beton üzlüyə alınmasına başlanılıb. Hazırda idarənin maşın-mexanizmləri və işçi heyəti tərəfindən təxirəsalınmaz işlər aparılır.

Samux Suvarma Sistemləri İdarəsi tərəfindən kanallarda lildən, çaylarda isə məcra təmizləmə işləri və selə qarşı tədbirlər də davam edir. Bundan başqa boru xətlərinin və hidrotexniki qurğuların təmiri, cari və əsaslı təmiri həyata keçirilir. 2022-ci ilin əvvəlindən indiyədək 98 ədəd nasos, 7 ədəd elektrik avadanlığı təmir edilib. Hazırda kanaldan sahələrə suyun verilməsi üçün işçilər tərəfindən növbələr tutulub, daim kanallara nəzarət olunur. Əlavə olaraq kanallarda əl ilə lildən təmizləmə işləri də aparılır. Kanallar tam işlək vəziyətə salınır, su itkisinin qarşısının alınması üçün tədbirlər görülür. Çaylardan gələn sel sularının qarşısının alınması üçün cari il ərzində Gəncə çayında, Qabırrı çayında, Qoşqar çayında da torpaq işləri görülüb.

Qeyd edək ki, Samux rayonu ərazisində 10346 ha taxıl bitkisi, 770 ha xəsil səpilib ki, idarə tərəfindən görülən tədbirlər nəticəsində suvarma suyunda çətinliklər yaranmayıb.

Bəhramtəpə melioservis idarəsi İmişlidə və Biləsuvarda kollektorları lildən təmizləyir. Dilqəm Şərifov bildirib ki, Bəhramtəpə Melioservis İdarəsi təsərrüfatlararası və təsərrüfatdaxili suvarma və kollektor drenaj sistemlərinin lildən təmizlənməsi, hidrotexniki qurğuların təmiri, bərpası və yenidən qurulması, o cümlədən torpaq məcralı kanalların beton üzlüyə alınması işlərini həyata keçirir. Hazırda idarənin texnikaları İmişli rayonu ərazisində kollektor-drenaj şəbəkəsinin lildən təmizlənməsini həyata keçirir. Bununla da kollektora yaxın ərazilərdə yerləşən torpaqların şoranlaşmasının qarşısı alınır və əkinə yararlı hala gəlir. Artıq uzun illər əkin aparılmayan torpaqlar meliorativ cəhətdən keyfiyyətli torpaqlara çevrilir.

Bəhramtəpə Melioservis İdarəsi İmişli rayonu ilə yanaşı Biləsuvar rayonunda da meliorativ tədbirlərini davam etdirir. Biləsuvar rayonu ərazisində Cəbrayıl rayonundan olan fermerlərin su təminatının yaxşılaşdırılması məqsədilə əkin sahələrinin yaxınlığından keçən kollektor-drenaj şəbəkələrinin təmizlənməsi üçün əraziyə texnikalar cəlb olunub.

Qeyd edək ki, Bəhramtəpə Melioservis İdarəsi İmişli və Biləsuvar rayonlarının bir çox kəndlərində və ərazilərində kollektor-drenaj şəbəkələrinin və torpaq məcralı kanalların lildən təmizlənməsi işlərini davam etdirir.

***Hüseyn İsgəndərov***




# Vətən üçün canını fəda edənlər unudulmur

***Ağamid Şirzaid oğlu Ağacəfərli 1995-ci il yanvarın 23-də Lerik şəhərində anadan olub. Orta təhsilini Azərbaycanın Milli Qəhrəmanı şəhid Valeh Müslümov adına Lerik şəhər 2 saylı tam orta məktəbində alıb. 2013-cü ildə Tərtər rayonunun N saylı hərbi hissəsində əsgəri borcunu yerinə yetirib və xidmətdə olduğu dövrdə kəşfiyyatçı kimi hazırlıq keçib.***

2015-ci ilin iyul ayında hərbi xidməti başa vuraraq üzüağ geri dönən elin mərd oğlu Vətən müharibəsi başlayanda 30 sentyabr tarixində könüllü olaraq kəşfiyyatçı kimi haqq savaşımıza qatılır . Vətən sevdalısı verilən döyüş tapşırıqlarını uğurla yerinə yetirməklə düşmənə sarsıdıcı zərbələr endirir. Füzulinin, Qubadlının işğaldan azad edilməsi istiqamətində gedən döyüşlərdə silah yoldaşları ilə birlikdə qəhrəmancasına vuruşan A. Ağacəfərli Qubadlı istiqamətində gedən döyüşdə şəhidlik zirvəsinə ucalır. Prezident İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, əsgər Ağamid Şirzaid oğlu Ağacəfərli ölümündən sonra “Füzulinin azad olunmasına görə”, “Vətən uğrunda” və “İgidliyə görə” medalları ilə təltif edilir

Vətən müharibəsinin qalib şəhidinin şəhadətinin ikinci ildönümündə rayon icra hakimiyyəti başçısı Əkbər Abbasov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərləri və şəhər sakinləri onun Lerik şəhərindəki məzarını ziyarət edib, üzərinə gül dəstələri düzərək xatirəsini ehtiramla andılar. Həm də icra başçısı Ə. Abbasov şəhidin ailə üzvləri ilə səmimi söhbət etdi, onların qayğı və problemləri ilə ətraflı maraqlandı. Onu da bildirdi ki, şəhidlərin ömür yolu nə qədər qısa olsa da, gələcək nəsillərimiz üçün örnək olacaq bir tarix yazıb gedirlər. Bu qəhrəmanlıq tarixi onlara əbədi ömür bəxş edir. Sizin övladınız Ağamiddə Azərbaycanımız var olduqca, ürəklərdə yaşayacaq.

Zəfər Orucoğlu, Azərbaycan Jurnalistlər Birliyinin üzvü

# Eldar Əzizov bahalaşmanı İtaliya və Almaniya ilə müqayisə etdi

***Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun Xətai rayonu Əhmədli qəsəbəsinin sakinləri ilə görüşü olub.***

”Unikal”ın məlumatına görə, görüşdə çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, dünyada baş verən mürəkkəb prosseslər, həmçinin Avropadakı müharibə səbəbindən dünya iqtisadiyyatı böyük sarsıntılar yaşayır. Belə ki, qlobal səviyyədə əsas qida məhsullarının qiymətlərində artım baş verir. Azərbaycan da dünya iqtisadiyyatına inteqrasiya edib, lakin Prezident İlham Əliyevin sosial yönümlü siyasəti nəticəsində neqativ prosseslər ölkəmizdə o qədər də hiss edilmir.

Xüsusi olaraq vurğulanıb ki, qədim dövrlərdən bəri əsas qida məhsulu sayılan çörəyin 1 kq-nın qiyməti Almaniya və İtaliyada 6-7 AZN-dir. İqtisadi cəhətdən çox zəif olan Ermənistanda çörək 2,5 AZN, Rusiyada 2 AZN-dirsə, Azərbaycanda isə bu 1 manat 10 qəpik təşkil edir. Yumurtanın bir ədədi Rusiya və Ermənistanda 25 qəpik, Gürcüstanda 24 qəpik, Tacikistan və Moldovada 23 qəpik, Belorusda 18 qəpikdirsə, Azərbaycanda yumurta 16 qəpikdir. Eldar Əzizov həm də mal ətinin 1 kq-nın qiymətlər fərqindən danışdı. Bildirdi ki, mal ətinin 1 kq-nın qiyməti Azərbaycandan fərqli olaraq İtaliyada 2,2 dəfə, Ermənistanda 1,8 dəfə, Almaniyada 1,5 dəfə, Rusiyada 1,4 dəfə, Gürcüstanda 1,2 dəfə bahadır.

Bununla bərabər çox ağır iqtisadi durumda olan Ermənistanda və eyni zamanda Avropa ölkələrində qiymətlər hər ay qalxır, Azərbaycanda isə dövlətin dəstəyi sayəsində bu tendensiya mövcud deyil. Statistik məlumatlardan da göründüyü kimi ölkəmizdə əsas qida məhsullarının qiyməti bir sıra dünya ölkələrində olduğundan dəfələrlə aşağıdır və bu da ölkə başçısı cənab İlham Əliyevin sosial yönümlü siyasətinin nəticəsidir.

# Putin Rəisiyə başsağlığı verdi



***Rusiya Prezidenti Vladimir Putin iranlı həmkarı İbrahim Rəisiyə Şirazda törədilmiş terror aktı ilə bağlı başsağlığı verib.***

"Unikal" xəbər verir ki, bu barədə Kremlin Mətbuat Xidməti məlumat yayıb.

Putin Rəisiyə göndərdiyi başsağlığı məktubunda Moskvanın terrorizmlə mübarizədə Tehranla əməkdaşlığı artırmağa hazır olduğunu vurğulayıb.

Xatırladaq ki, ötən gün İranın Şiraz şəhərində yerləşən Şahçerağ ziyarətgahında terror aktı törədilib. 3 silahlı şəxsin Şahçerağ ziyarətgahına hücumu nəticəsində 45 nəfərin öldüyü bildirilib.

# ABŞ-ın baş kəşfiyyatçısı gizli şəkildə Kiyevə gedib

***ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) direktoru Uilyam Börns oktyabrın əvvəlində Ukrayna Prezidenti Vladimir Zelenski və digər rəsmilərlə görüşmək üçün gizli şəkildə Kiyevə səfər edib.***

"Unikal" xəbər verir ki, bu barədə CNN məlumat yayıb.

"O, ABŞ-ın Ukraynanı Rusiyanın hücumuna qarşı mübarizəsində, o cümlədən daimi kəşfiyyat mübadiləsində dəstəkləmək öhdəliyini təsdiqləyib", - deyə KİV diplomatik mənbələrə istinadən yazıb.

# İran yeni nüvə tədqiqat reaktoru inşa edir

***İran İsfahan əyalətində 10 meqavatlıq yeni nüvə tədqiqat reaktorunun tikintisinə başlayıb.***

"Unikal" İranın rəsmi agentliyi İRNA-ya istinadən xəbər verir ki, İsfahanda nüvə tədqiqat reaktorunun tikintisi İranın Atom Enerjisi Agentliyinin sədri Məhəmməd İslaminin iştirak etdiyi mərasimlə başlayıb.

Hesabatda deyilir ki, 20 faiz zənginləşdirilmiş nüvə yanacağını istifadə edən 10 meqavatlıq hovuz tipli reaktor nüvə yanacağının sınaqdan keçirilməsi, tibbi və sənaye radioizotoplarının istehsalı, neytron şüalarının tədqiqatı və tətbiqi işlərinin inkişafı üçün istifadə olunacaq.

Bildirilib ki, nüvə tədqiqat reaktoru ölkənin ən böyük nüvə obyektlərindən biri olan İsfahan Nüvə Texnologiyaları Mərkəzinin tərkibində yerləşəcək.

***Seymur Əli***

# Rusiyanın "Su-25" təyyarəsi və helikopteri vuruldu

***Ukrayna Silahlı Qüvvələri Rusiyanın "Su-25" hücum təyyarəsi və "Ka-52" zərbə helikopterini vurub.***

"Unikal" UNIAN-a istinadən xəbər verir ki, bu barədə Ukrayna Müdafiə Nazirliyindən bildirilib.

Bildirilir ki, hadisə Xerson istiqamətində baş verib. Ölən və yaralanan barəsində məlumat yoxdur.



# "Ermənistanı Rusiyadan imtina etməyə sövq edirlər" - Karapetyan

***Erməni İş Adamları Assosiasiyasının prezidenti, iş adamı Samvel Karapetyan Ermənistan-Rusiya münasibətlərindəki narahatedici tendensiyalar barədə açıqlama verib.***



"Unikal" xəbər verir ki, o, bu barədə yerli KİV-lərdən birinə müsahibə verib.

"Son aylar Ermənistanda vüsət alan təhlükəli impulsları və tendensiyaları nəzərdən qaçırmaq mümkün deyil. Bu gün müxtəlif qüvvələr Ermənistanı açıq şəkildə Rusiyadan əl çəkməyə, tarixi özünüməhv addımına sövq edir. Ermənistan üçün istər-istəməz ağır nəticələrə səbəb ola biləcək belə qərarların qəbulunun qarşısını almaq vacibdir. Onu da nəzərə almaq olmaz ki, bu gün Rusiya Federasiyası Ermənistanın ən böyük iqtisadi tərəfdaşıdır, ölkələrimizi çoxəsrlik tərəfdaşlıq, mədəni və mənəvi əlaqələr birləşdirir. Ona görə də indi düzgün seçim etmək daha çox vacibdir", - deyə o açıqlamasında bildirib.

***Gülayə Mecid***

# İrandakı terroru İŞİD qruplaşması öz üzərinə götürdü

***Ötən gün İranda məbəddə baş verən terror aktına görə məsuliyyəti İraq Şam İslam Dövləti (İŞİD) terror qruplaşması üzərinə götürüb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, müvafiq açıqlama İŞİD-in təbliğat mediasında yerləşdirilib.

Açıqlamada 20 nəfərin öldürüldüyü, bir o qədərinin də yaralandığı göstərilir.

Qeyd edək ki, ötən gün İranın Şiraz şəhərindəki Şahçerağ ziyarətgahında terror aktı törədilib. 3 silahlı şəxsin Şahçerağ ziyarətgahına hücumu zamanı 15 nəfər ölüb, 40 nəfər yaralanıb.



# Çavuşoğludan İrandakı terrorla bağlı paylaşım

***Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu İranda törədilən terror aktını pisləyib.***

"Unikal" xəbər verir ki, o, bu barədə tviterdə yazıb.

"İranın Şiraz şəhərindəki ziyarətgahı hədəf alan mənfur və qəddar terror aktını qətiyyətlə pisləyirik. Həyatını itirənlərə Allahdan rəhmət, yaralananlara isə şəfa arzulayırıq", - M.Çavuşoğlu bildirib. Qeyd edək ki, oktyabrın 26-da İranın Şiraz şəhərində törədilən terror aktı nəticəsində 20 nəfər ölüb.



# "Ukrayna ABŞ-ın böyük oyununda sövdələşmə obyektidir" - Medvedev

***"Ukrayna Amerikanın böyük oyununda sövdələşmə obyektidir".***

"Unikal" gazeta.ru-ya istinadən xəbər verir ki, bunu Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədr müavini Dmitri Medvedev "Telegram" kanalında yazıb.

Medvedev gələn ay ABŞ-da seçkilərin keçiriləcəyinə diqqət çəkib. "ABŞ prezidenti Co Baydenin hazırkı komandası üçün, eləcə də onların respublikaçı rəqibləri üçün valyuta əslində birdir - onlara lazım olmayan mifik Ukrayna vətəndaşlarının həyatıdır. Ukraynalılar Amerikanın böyük oyununda sövdələşmə obyektidir", - Rusiya Təhlükəsizlik Şurasının sədr müavini yazıb.

Medvedevin sözlərinə görə, "siyasətçilər həm də Amerika silahlarının sonsuz tədarükü üçün ukraynalıların həyatı ilə ödəyirlər".

"İnsanlarımız da əziyyət çəkir. Ancaq yeganə fərq odur ki, xalqımız qisas alacaq", - Medvedev əlavə edib.



Bildirək ki, ABŞ Senatına seçkilər bu il noyabrın 8-də keçiriləcək.

***Gülayə***

# Britaniya kəşfiyyatı Rusiyanın gizli bölməsini ifşa etdi

***Britaniya kəşfiyyatı Rusiyanın Ukraynaya raket hücumları həyata keçirən gizli bölməsini ifşa edib.***

"Unikal" xəbər verir ki, bu barədə Böyük Britaniyanın "Bellingcat" araşdırma şurası hesabat dərc edib.

Bildirilir ki, Ukraynaya raket hücumlarının arxasında əsasən 30 nəfərlik gənc mühəndislər və İT mütəxəssisləri olan gizli Rusiya hərbi birliyi dayanır. Mühəndislər qrupu 3 komandaya bölünərək işləyir. Bu mühəndislər dəniz, hava və qurudan atılan qanadlı raketlərə cavabdehdirlər. Gizli bölmənin arxasında duran şəxs isə polkovnik-leytenant İqor Bagnyukdur.

# Şəhidlərin xatirəsinə həsr edilmiş futbol turniri




***Lənkəran Olimpiya İdman Kompleksində bu elin fəxri, qürur mənbəyi olan Vətən müharibəsinin qalib şəhidləri Fariz Fərhad oğlu Zülfüqarzadə və Samir Elçin oğlu Allahverdiyevin xatirəsinə həsr olunan mini futbol turniri azarkeşlər arasında böyük maraq yaratdı.***

Turnirin təşkilində əsas məqsəd şəhidlərin xatirəsinin anılması, onların həyat və döyüş yolu barədə gənc nəsillərə geniş və ətraflı məlumat verməkdən ibarət idi.

Dövlət himninin sədaları altında başlayan tədbirdə Vətən, torpaq üçün canından keçib şəhidlik zirvəsinə ucalan qəhrəman oğulların xatirəsi bir dəqiqəlik sükutla anıldı. Daha sonra Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısının müavini Mikayıl Cəfərzadə çıxış etdi:- 44 günlük müharibədə xalqına zəfər sevincini yaşadan şəhidlərin adlarının əbədiyaşarlığı, xatirəsinin daim yad olunması dövlətimizin mərkəzi xəttidir. Həmçinin ictimaiyyətin və yerli insanların da müxtəlif təşəbbüslərlə şəhid ailələrinin yanlarında olması sevindirici haldır. Bu birlik və bərabərliyin cəmiyyətin, eləcə də dövlətin inkişafı baxımından mühüm əhəmiyyəti vardır. Bəli, qalib xalq kimi sözügedən məsələdə bir çox dövlətlərə və xalqlara nümunəyik .

Turnirə dəvət olunan şəhid anaları Həqiqət Zülfüqarova və Könül Allahverdiyeva övladlarının xatirəsinin əziz tutulmasından və gələcək nəsillər arasında təbliğ olunmasından razılıqlarını ifadə etməklə, onu da bildirdilər ki, bu istiqamətdə həyata keçirilən addımlar şəhid analarının qəlbini oxşayır, onlara təskinlik verir və özlərini yalnız hiss etmirlər. Bütün bunlara görə isə cənab Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya , xalqımıza minnətdarıq.

Finalda üz-üzə gələn Lənkəran şəhər 4 və 5 saylı tam orta məktəblərinin şagirdlərdən ibarət futbol komandaları Vətən şəhidlərinin xatirəsinin əziz tutulması və onların adlarının gələcək nəsillərə ötürülməsi üçün meydanda gərgin mübarizə apardılar. 5 sayli məktəbin komandası rəqibinə qalib gələrək xatirə kubokunu qazandı. Bununla bərabər oyunda fərqlənə futbolçulara da diplomlar verildi.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Bakıda keçiriləcək Dünya Kuboku üçün hazırlıq işlərinə start verilib

***Bakı İdman Sarayında keçiriləcək yunan-Roma güləşi üzrə Dünya Kubokuna hazırlıqlar davam edir.***

Bu barədə Azərbaycan Güləş Federasiyasının mətbuat katibi Sərxan Musalı jurnalistlərə açıqlamasında bildirib.

O qeyd edib ki, Azərbaycan daha əvvəl sərbəst güləş üzrə belə mötəbər yarışı qəbul etmişdisə, "klassik növ" üzrə bu, ilk olacaq:

"Son bir aydır ki, təşkilati işlər davam edir. Bu gündən isə Bakı İdman Sarayında tikinti-quruculuq işlərinə başlayırıq. İlk olaraq İdman Sarayını güləş yarışları üçün uyğun hala gətirəcəyik. Yəni güləş xalçaları quraşdırılacaq. Daha sonra isə digər texniki qurğular, detallar hazırlanacaq. Böyük



monitorlar, bilbordlar və digər lazımi ləvazimatlar yerləşdiriləcək".

Qeyd edək ki, Dünya Kuboku noyabrın 5-6-da keçiriləcək.

# "Qarabağ"la oyun üçün məndə intiqam hissi var"

***"Nant"ın baş məşqçisi Antuan Kombuare hesab edir ki, komandası bu gün "Qarabağ"la matçda Bakıdakı oyunda olduğu kimi çoxlu cəhv etməyəcək.***



Qol.az xəbər verir ki, bu gün Avropa Liqasının qrup mərhələsinin 5-ci turunda Fransa təmsilçisi öz meydanında Azərbaycan çempionunu qəbul edəcək. AL-də "pley-off"a yüksəlmək üçün Qurban Qurbanovun komandasını 1 xal da təmin edir. "Nant" isə mübarizəni Avroliqada davam etdirmək üçün hökmən qələbə qazanmalıdır. Bu halda onların son turun nəticəsindən asılı olaraq AL-də pley -off oynamaq şansı yaranacaq.

"L'equipe" nəşri Antuan Kombuarenin oyun öncəsi keçirdiyi mətbuat konfransının geniş mətnini yayıb. 58 yaşlı mütəxəssis deyir ki, Bakıdakı matçda ("Qarabağ" 3:0 hesabı ilə qalib gəlib) komandası müdafiə xəttində xeyli səhvə yol verib, bu da ağır məğlubiyyətə səbəb olub. Onun fikrincə, bunlar bir daha təkrarlanmayacaq. "Belə səhvlər bir dəfə olur. Mən həmişə komandamı meydana hazırlıqlı vəziyyətdə çıxarmağa çalışıram. "Qarabağ"la ilk matçda da belə idi. Bəzi rotasiyalar da vardı. Səfərdəki görüşdə biz müdafiəni "itirdik". Amma belə şey bir dəfə baş verə bilər. Bizim qürurumuz var".

Antuan Kombuaredən heyətdəki futbolçu azlığının oyuna təsiri və gənc futbolçulara az şans verməsi ilə bağlı da soruşulub. Bugünkü görüşdə müdafiəçilər Şarl Traorenin və Fabyen Santonzun iştirak edə bilməyəcəyi xatırladılıb. Mütəxəssisin dediyinə görə, "Nant"ın gənc futbolçuları belə matçlar üçün rotasiyaya hazır deyil: "Əgər onlar istədiyim vəziyyətdə olsaydılar, daha çox oynayardılar. Kventin Merlin ("Nant"ın 20 yaşlı sol cinah müdafiəçisi - Qol.az) kimi futbolçular çox deyil. Əgər xal ehtiyatımız çox olsa idi əlbəttə, gənclərə oynamaq üçün çox şans verərdim".

Jurnalistlərdən biri Antuan Kombuareyə sual edib ki, sizdə birinci oyundakı məğlubiyyətə görə revanş hissi varmı? Buna cavab olaraq mütəxəssis deyib:

"Orada birinci hissədəki oyunumuzu nəzərə alsaq, mən üç qol buraxacağımızı gözləməzdim. İkinci hissədə çox pis çıxış etdik. Biz müdafiədə oyunumuzu itirdik. Amma dediyim kimi, belə şeylər bir dəfə olur. Əlbəttə, məndə intiqam hissi var".

# Kloppdan ÇL rekordu

***"Liverpul"un baş məşqçisi Yurgen Klopp Çempionlar Liqasında yeni rekorda imza atıb.***

Qol.az "Opta"ya istinadən xəbər verir ki, bu, komandanın ötən gecə qrup mərhələsinin 5-ci turunda "Ayaks"a qalib gələrək (3:0) pley-offa vəsiqə qazanmasından sonra dəqiqləşib. Nəticədə "Liverpul" Kloppun baş məşqçiliyi altında ardıcıl 6-cı dəfə turnirdə pley-offa çıxmağı bacarıb. Bu isə ÇL-də ən uzun seriya - rekord göstəricidir.

Qeyd edək ki, "Liverpul" hazırda A qrupunda 12 xalla 2-cidir. Komanda yalnız 15 xalı olan "Napoli"dən geri qalır. "Ayaks" 3 xalla 3-cü, xalı olmayan "Reyncers" isə sonuncudur. "Liverpul" sonuncu - 6-cı turda məhz qrup lideri "Napoli" ilə qarşılaşacaq. Noyabrın 2-si "Enfild" stadionunda keçiriləcək matç Bakı vaxtı ilə saat 00:00-da başalyacaq.

Xatırladaq ki, Yurgen Klopp 2015-ci ildən "Liverpul"u çalışdırır. Komanda onun baş məşqçiliyi altında 2019-cu ildə Çempionlar Liqasını qazanıb.

# Xavi: "Futbol bizə qarşı qəddar idi"

***"Barselona"nın baş məşqçisi Xavi Çempionlar Liqasının qrup mərhələsinin 5-ci turunda "Bavariya"ya uduzduqları matç (0:3) barədə danışıb.***

Qol.az "Marca"ya istinadən xəbər verir ki, ÇL-də qrupda qaldığı dəqiqləşən komandanın 42 yaşlı çalışdırıcısı Münhen təmsilçisinin onlardan daha yaxşı səviyyəyə malik olduğunu deyib:

"Bavariya" bizdən daha yaxşı idi, bununla bağlı heç nə deyə bilmərik. Bu, indi bizim reallığımızdır. Çempionlar Liqasını unudub, başqa turnirlərə keçməliyik. Bu gün "Bavariya"nın səviyyəsinə çata bilmədik. Münhendə biz daha fəal idik, amma bu gün onlar daha yaxşı və aqressiv oynadılar. Sabah məşq edib çempionat haqqında düşünəcəyik. Çoxlu gözləntilər var idi, biz çətin qrupa düşdük".

Mütəxəssis qrupda qalmaları ilə bağlı isə bunları söyləyib: "Futbol bizə qarşı qəddar idi. Başqa ağır günlərdə döyüşürdük, amma burada yox. Mövsüm oktyabrda başa çatmır. Hələ uğrunda mübarizə aparacağımız kuboklar var. Birlik olmalıyıq. Bu, Çempionlar Liqasını tərk etmək üçün qəddar bir yoldur. Lakin digər oyunlarımızı təhlil etsəniz, görərsiniz ki, biz turnirdə daha çox şeyə layiq idik".

Qeyd edək ki, C qrupunda sona 1 tur qalmış ötən gecə "İnter" "Viktoriya"nı məğlub edib - 4:0. Nəticədə "Bavariya"dan sonra Milan təmsilçisi də pley-offa vəsiqə qazanıb. "Barselona" qrup 3-cüsü kimi yoluna Avropa Liqasında davam edəcək. "Viktoriya" isə sonuncudur.